Naxçıvan Müəllimlər İnstitutunun

050107 – İbtidai sinif müəllimliyi ixtisası üzrə

---

# Proqram akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının YEKUN HESABATI

2024-cü il

# Mündəricat


*Akkreditasiya Komissiyasının tərkibi ........................................................................3*

*I Giriş ....................................................................................................................4*

*II Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri ......................................5*

**1.Təhsil proqramı üzrə təhsilalanların qəbulu ....................................................................5**

**2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması.........................................7**

**3. Təhsil proqramı üzrə tədrisin təşkili......................................................................8**

**4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları ..................................15**

**5. Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları ...................................18**

**6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza..........23**

**7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi ..................................................................................................................26**

**8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti...........................................29**

**9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris................................................................32**

**10. Təhsil proqramının monitorinqi .........................................................................34**

**11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi.................................36**

**12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi.....................................................................................................................37**

*III Komissiyanın meyarlar üzrə təhlili........................................................................40*

*Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri ..............................47*

*Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi ....................................47*

## Akkreditasiya Komissiyasının tərkibi

| | |
|---|---|
| Könül Abaslı | Sumqayıt Dövlət Universiteti, Beynəlxalq əlaqələr üzrə prorektor |
| Pərvanə Mövsümova | Bakı Dövlət Universiteti, Akkreditasiya, təhlil və monitorinq şöbəsinin müdiri |
| Leyla Abbaslı | ADA, ADPU və Xəzər Universiteti, müəllim |
| Ülkər Mirzəyeva | Bakı Avropa Liseyi, Təlim-tərbiyə işləri üzrə direktor müavini |
| Gülzar Həbibova | ADA Universiteti, magistrant |

# I Giriş

## 1. Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Naxçıvan Müəllimlər İnstitutu |
| Təhsil səviyyəsi | Bakalavriat |
| Təhsil proqramının şifri və adı | 050107 – İbtidai sinif müəllimliyi |
| Sonuncu proqram akkreditasiyasına dair şəhadətnamənin verilmə tarixi və müddəti | 14 may 2019, 5 illik |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | - |
| Təhsil müəssisəsinin rəhbəri | Azad Novruzov |
| Fakültənin adı | Pedaqoji |
| Təhsil proqramının təhkim olunduğu kafedra(lar) sayı | 8 |
| Təhsil proqramı üzrə təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat:<br>*D/S: 39*<br>*ÖƏ: 394* |
| Təhsil proqramı üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) | **Bakalavriat:**<br>D/S: 1710<br>Ö/Ə: 1500<br>Magistratura: -<br>D/S: -<br>Ö/Ə: - |
| Təhsil proqramı üzrə təlim və tədris prosesinə cəlb edilmiş ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 48 |
| Təhsil proqramı üzrə əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik: 10<br>Saathesabı: 8 |
| Təhsil müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@nmi.edu.az<br>(+994 36) 545-32-02 |
| Təhsil müəssisənin hüquqi ünvanı | Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 2 |
| Təhsil müəssisənin faktiki ünvanı | Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 2 |

## II Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri

### 2. Qiymətləndirmənin icmalı

Təhsil proqramı Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Qiymətləndirmənin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil proqramının akkreditasiyasına dair Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. Akkreditasiya Komissiyası 24.04.2024 – 26.04.2024-cü il tarixində müəssisədə sahə səfərində olmuşdur. Akkreditasiya Komissiyasının meyarlar üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu

### 1.1 Təhsil proqramı üzrə tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

| |
|---|
| Naxçıvan Müəllimlər İnstitutunda (NMİ) İbtidai sinif müəllimliyi (İSM) ixtisasına qəbul sifarişi tərtib edilərkən mövcud təhsil proqramında və müvafiq standartlarda qeyd olunan tələblər nəzərə alınır. Belə ki, bakalavr səviyyəsi üzrə İSM ixtisasının təsnifatı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı” çərçivəsində təşkil edilir. Təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti nəzərə alınaraq institutun rektoru tərəfindən verilmiş təqdimat əsasında müzakirə komissiyası tərəfindən tələbə qəbulu proqnozu layihəsi hazırlanır. Bu sənəddə ixtisasın adı və şifri ilə yanaşı təhsil müəssisəsinin təklif etdiyi proqnoz yerlər göstərilir. Eyni zamanda ödənişli təhsil alanlar üçün illik təhsil haqqı da sənəddə əks olunur. Bu zaman institutda 8 kafedranın profilinə uyğun olan, tədris planlarını ödəyə bilən, baza ixtisası uyğun olan professor-müəllim heyətinin sayı, institutun maddi-texniki bazası (auditoriya fondu, o cümlədən müasir texnologiyalarla təmin olunmuş ixtisaslaşmış auditoriyalar, kitabxana fondu, laboratoriyalar və s.) nəzərə alınır. Qeyd olunanlar Elmi Şuranın iclas protokollarında mövcuddur. |




**Şəkil 1.1 Naxçıvan Müəllimlər İnstitutunun illər üzrə tələbə qəbulu**

2019-2024-cü illərdə İSM ixtisasına ən yüksək qəbul 2019-2020-ci tədris ilində (140 tələbə) və ən aşağı qəbul isə 2023-2024-cü tədris ilində (70 tələbə) müşahidə edilmişdir. Bu isə ötən müddət ərzində qəbul sayında əhəmiyyətli azalma olduğunu göstərir.

## 1.2 Təhsil proqramı üzrə ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Son beş ildə tələbə qəbulu ilə bağlı sifarişlərin ilkin layihələri tərtib edilərək Naxçıvan MR Ali Məclisinə göndərilib. Bu layihələr işəgötürən orqanı təmsil edən Naxçıvan MR Təhsil Nazirliyinin iştirakı ilə müzakirələrdən keçmiş və burada əmək bazarının tələbinin təhlili aparılıb. Komissiyanın sahə səfəri zamanı əvvəlki illərdə Naxçıvanda fəaliyyət göstərən üç ali təhsil müəssisəsinin rektoru, Təhsil şöbəsi, Məşğulluq şöbəsi və yerli qurumların nümayəndələri arasında aparılan müzakirələrdən sonra qəbul sifarişləri cəmiyyətin və əmək bazarının tələblərinə uyğun tərtib edildiyinə dair məlumat verilib. Bu müzakirələrə baxmayaraq, qərarları təsdiq edən rəsmi sənədlər sahə səfəri zamanı Komissiyaya təqdim olunmayıb.

### 1.3 Təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

| |
|---|
| Sahə səfəri müddətində Komissiyaya işəgötürənlərin təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərinin formalaşdırılmasında iştirak etdiyi bildirilib. İşəgötürənlərin iştirakı məzunların təcrübə yerləri və iş yerləri ilə bağlı təhsil müəssisələri və işəgötürənlər arasında davamlı dialoqların qurulmasına, eləcə də ixtisas üzrə kurikulumun əmək bazarının ehtiyaclarına uyğunlaşdırılmasına yönəlmiş birgə səyləri əks etdirir. Lakin müvafiq məsələ ilə bağlı hər hansı bir təsdiqedici sənədin olmaması, dialoqların və qərarların şəffaflığı və hesabatlılığı ilə bağlı fikir irəli sürmək və proqramın effektivliyinin monitorinqini aparmaq üçün məhdudiyyət yaradır. |

## 2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması

### 2.1 Tanınmış kvalifikasiyanın aid olduğu təhsil səviyyəsinin düzgün müəyyən edilməsi

| |
|---|
| İSM təhsil proqramı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli, 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin (AzMKÇ) tələblərinə uyğundur. Təhsil proqramı AzMKÇ-nin VI səviyyəsinə müvafiq olaraq Avropa Kredit Transferi və Toplanması Sisteminə (AKTTS) uyğun olan kreditlərlə eyniləşdirilib. Təlim nəticələri bilik, bacarıq və müstəqillik baxımından AzMKÇ-nin səviyyələri ilə əlaqələndirilərək təsvir edilib. İSM ixtisası peşə və kvalifikasiya standartlarına uyğunluq təşkil edir. |

### 2.2 Tanınmış kvalifikasiya üzrə əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcminin düzgün müəyyən edilməsi

| |
|---|
| Tanınmış kvalifikasiya üzrə əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcminin düzgün müəyyən edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 may 2019-cu il tarixli, 230 saylı “Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları”na uyğun olaraq həyata keçirilir. Bu zaman onların əvvəl qazandığı kreditlər (təhsil nəticələri) və qiymətləri yoxlanılır, sonra köçürüldüyü ixtisasın tədris planındakı fənlər üzrə kreditləri müqayisə edilir, uyğun olanları nəzərə alınır və onun tələbə kontingentinə daxil edilməsi barədə əmr verilir. Fənlərin kreditlərinin tanınması zamanı müvafiq kreditlər və saatlarla yanaşı tələbələrin əvvəlki təhsilində fənlər üzrə əldə etdikləri kompetensiyalar da nəzərə alınır. Qazanılan kreditlərin ATM-də tələbənin SIMS (Student Information Management System – Tələbə İnformasiya İdarə Sistemi) hesabına köçürülməsi üçün rəsmi transkriptin əlavə olunduğu Kredit Transfer forması tərtib olunur. Kredit Transfer formasında köçürülən fənnin kodu, adı, krediti və qiyməti, eləcə də NMİ-də fənnin kodu, adı, krediti, bloku və qiymətinin ekvivalenti qeyd olunur. Bütün bu proseslər AOTİS (Ali və Orta ixtisas təhsili alt sistemi) |

üzərindən aparılır. Bununla yanaşı tələbə köçürmələri və Tələbə kredit sistemi də elektron həyata keçirilir.

### 2.3 Tanınmış kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 13.08.2020-ci il tarixli F-226 nömrəli əmri ilə təsdiq edilmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə təhsil proqramının çərçivə sənədi"nə əsasən İSM təhsil proqramının və hər fənn üzrə təlim nəticələri, onların əldə olunmasına dəstək verən matris məzmun standartlarına uyğun tərtib edilib. İSM-nin təhsil proqramı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 13.08.2020-ci il tarixli F-226 nömrəli əmri ilə təsdiq edilmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas və ixtisaslaşmalar üzrə təsdiq edilmiş təlim nəticələri və məzmun standartları"na uyğundur.

## 3. Təhsil proqramı üzrə tədrisin təşkili

### 3.1 Təhsil proqramı üzrə tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

İSM ixtisası üzrə tədris planı, kredit sisteminin tələblərinə uyğun olaraq hazırlanmışdır. Tədris planı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 21 avqust 2020-ci il tarixində təsdiqlənmiş bakalavriat səviyyəsi üzrə İSM proqramının tələbləri əsasında tərtib olunmuş və 3 sentyabr 2020-ci il tarixli Elmi Şuranın iclasında (Protokol N$^{o}$ 01) müzakirə edilərək qəbul olunduqdan sonra rektor tərəfindən təsdiq edilmişdir. Tədris planı hazırlanarkən kredit sisteminin bütün tələbləri nəzərə alınmışdır. İlkin olaraq, hər semestr üçün 30 kredit olmaqla, ümumilikdə 240 kreditin ayrılması təmin edilmiş və nəticədə auditoriya saatları və auditoriyadankənar saatlar arasında olan balans qorunub saxlanılmışdır. Seçmə fənlər bölməsində hər blokda ən azı iki fənn yer alsa da, institut tərəfindən müəyyənləşdirilmiş seçmə fənlərin standartlara tam uyğun olmaması aşkar edilmişdir. Belə ki, kreditlər uyğunluq təşkil etsə də, fənlərin adları lazım olan peşə kompetensiyalarını tam təmin etməməkdədir. Buna baxmayaraq, hər bir tələbənin tədris ili ərzində götürəcəyi fənləri, onların müvafiq kreditlərini və fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcud olduğu öz təsdiqini tapmışdır.

### 3.2 Təhsil proqramı üzrə ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

İSM proqramında tədris Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 21 avqust 2020-ci il tarixində təsdiqlənmiş bakalavriat səviyyəsi üzrə İSM proqramının tədris planına uyğun olaraq aparılır. Bu tədris planına əsasən hər semestr üçün tədris qrafiki hazırlanır. ÖTH-də də qeyd olunduğu kimi, 2019-2020-ci tədris ilindən əvvəlki tədris qrafikləri ayrı-ayrı sənədlər şəklində hazırlanıb və tədris planına əlavə olunub. Burada

fənlərin illər, semestrlər və həftələr üzrə bölgüsü əks olunub. Tədris planlarında ixtisas üzrə fənlərin illər, semestrlər və həftələr üzrə bölgüsü göstərilmişdir. Hər bir fənn üçün proqramlar, işçi tədris proqramları (sillabus), tapşırıqların yerinə yetirilmə cədvəlləri və seminar məşğələlərinin planları hazırlanıb. 2020-ci tədris ilindən başlayaraq tədris planlarına 13-14-cü sütunlar əlavə edilməklə tədris qrafiklərinin məzmunu tədris planına daxil edilib. Eyni zamanda imtahan cədvəlləri və auditoriyadankənar dərslərin cədvəllərini əks etdirən qrafiklər də mövcuddur.

### 3.3 Təhsil proqramı üzrə tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Təhsil proqramına uyğun olaraq ümumi fənn blokunda 30 kredit (onlardan 6-sı seçmə fənn olmaqla), ixtisas fənləri blokunda 180 kredit (onlardan 60-ı seçmə fənn olmaqla) və pedaqoji internatura üçün 30 kredit ayrılıb. İSM ixtisası üzrə digər ixtisaslarda olduğu kimi tədris planında məcburi və seçmə fənlərin bölgüsü ilə bağlı məlumatlar və onların icrası prosesi eyni aparılır. Yəni, seçmə fənlərin müəyyənləşdirilməsi "icbari qaydada" aparılır. Tələbələr fənnin təlim nəticəsini bilmədən fakültə əməkdaşlarının məsləhəti əsasında fənlərin seçimini həyata keçirirlər. Nümunə üçün, İSM ixtisası üzrə "Hüsnxətt" fənni bütün qruplarda seçmə fənn olaraq tədris edilir, lakin bu fənn tələbələrin sərbəst seçimi deyil, onlara verilmiş göstərişlər əsasında seçilmiş fənn kimi müəyyən edilir. Sahə səfəri zamanı müvafiq məsələ ilə ayrı-ayrı tərəflərlə keçirilən görüşlərdə də səsləndirilən fikirlər seçimin bu formada aparıldığını təsdiq etdi.

### 3.4 Təhsil proqramı üzrə tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Təhsil proqramının tədris planında ümumi və ixtisas fənləri arasında balansın təmin edilməsi çox önəmlidir. Bu balansın 30/180 nisbətində olması qorunaraq proqramın məqsədlərinə uyğunluğu göstərilmişdir. Yəni, tədris planında ümumi fənlər (ümumi fənlər tələbələrə geniş bilik və bacarıqlar qazandırmaq məqsədi daşıyır) üçün 30 kredit ayrılmışdır. İxtisas fənləri (ixtisas fənləri tələbələrin müəyyən ixtisas sahəsində dərin bilik və bacarıqlara yiyələnməsini təmin edir) üçün isə 180 kredit ayrılmışdır. Ümumi fənlərdən 6 kredit, ixtisas fənlərindən isə 60 kredit seçmə fənn olaraq müəyyən edilib.

### 3.5 Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Fakültə və kafedralarda İSM ixtisası üzrə kompetensiya xəritəsi mövcuddur. Fənn sillabusları hazırlanarkən kompetensiya xəritəsinə əsaslanılır və hər bir fənn üçün kompetensiya əsaslı təlim nəticələri müəyyən edilir. Sahə səfəri müddətində bu nəticələrin kafedranın iclaslarında detallı şəkildə müzakirə olunduğu bildirilsə də heç bir iclas protokolunda müzakirə nəticələrinə rast gəlinmədi. Əlavə olaraq, fənn təlim nəticələri (FTN-lər) tərtib edilərkən Blum taksonomiyasının istifadəsi, FTN-lərin sayının fənnin saat və kreditlərinə uyğunluğu və s. kimi bəzi nüansların gözdən yayındığı müşahidə olundu. O cümlədən sahə səfəri zamanı qeyd olundu ki, sillabuslar tərtib edildikdən sonra sahə üzrə

digər mütəxəssislər - müəllimlər rəy bildirirlər. Əgər rəylərdə sillabusun təkmilləşməsi ilə əlaqəli qeydlər olarsa, onlar iclasda müzakirə edilib yekun sillabusa əlavə edilir. Rəylər sillabusların sonunda və iclas protokollarında əks olunur.

### 3.6 Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə fənlərin təlim nəticələri fənn sillabuslarında öz əksini tapır. Bu zaman əsas fənlər üçün hazırlanmış FTN-lər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 21 avqust 2020-ci il tarixində təsdiqlənmiş bakalavriat səviyyəsi üzrə İSM proqramının tələblərinə əsasən təyin edilir, seçmə fənlər isə müəllimlər tərəfindən hazırlanır. Lakin sillabusların tərtibi zamanı xüsusi bir yanaşma və ya strukturlaşdırılmış meyarlar izlənilmir. Sahə səfəri zamanı təhsilverənlərlə görüşlərdə bu prosesin əsasən, müəllimlərin öz aralarında apardığı fikir mübadiləsi əsasında həyata keçirildiyi müəyyən edildi. Bildirildi ki, təlim nəticələri müəllimlər tərəfindən müəyyən edilir və onların aralarındakı qeyri-rəsmi müzakirələri nəticəsində qiymətləndirmə aparılır. Seçmə fənlərin xəritəsi və FTN-lərin kompetensiyalara uyğunluğunu əks etdirən heç bir sənədə rast gəlinmədi. Sillabuslara verilən rəylər və qeyri-rəsmi müzakirələr əsasında zəruri hesab edilən dəyişikliklər edilir və sonra sillabuslar Fakültə Elmi Şurasında təsdiq olunur. Bu yanaşma müəyyən dərəcədə çevikliyi təmin etsə də, sillabusların hazırlanmasında PİNT (planla, icra, nəzarət və tətbiq) mexanizminin tətbiq olunmaması təlim nəticələrinin tam və uyğun şəkildə əks etdirildiyinə dair sualların ortaya çıxmasına səbəb olur. Bu da tədris prosesinin keyfiyyətinin təmin olunmasında çətinliklərə səbəb ola bilir.

### 3.7 Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü, tələbələrin dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verəcək şəkildə tənzimlənir. İşçi tədris planları və dərs cədvəlləri tərtib olunarkən auditoriya və dərsdənkənar məşğələlərə ayrılmış normativlər əsas tutulur. Cədvəl tərtib olunarkən 5 günlük iş həftəsi əsasında hər gün auditoriya dərsi və auditoriyadankənar məşğələlər üçün ortalama olaraq 4-5 akademik saat nəzərə alınır. Bir kredit, tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Bu, tələbələrin iş yükünün qanunvericilikdə müəyyən edilmiş normativlərə əsasən düzgün şəkildə tənzimlənməsini təmin edir.

### 3.8 Təhsil proqramı üzrə tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə tələbələrin fərdi tədris planlarında tələbələrin təhsil ili ərzində götürəcəyi fənlər, onların müvafiq kreditləri və fənlər üzrə müəllimlərin siyahısı göstərilir. Tələbələrin fərdi tədris planları akademik məsləhətçilərin (tyutorların) rəhbərliyi altında tərtib

olunur. Tələbələr seçimlərini təsdiqlədikdən sonra fərdi tədris planları fakültə dekanı tərəfindən təsdiq olunur. Fərdi tədris planı nümunələri təsdiqedici sənədlər olaraq təqdim olunub.

**3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

İllik işçi tədris planları ixtisasın tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun şəkildə hazırlanıb. Bu planlar, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini özündə əks etdirir.

**3.10 Təhsil proqramı üzrə müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

Müəllimin illik işçi tədris planı mövcuddur. Bu tədris planı müəllimin tədris etdiyi fənləri, mühazirə və laboratoriya işlərinə ayrılan saatları, həmin fənlərin semestrlər üzrə tədrisini və fənn üzrə tələbələrin sayını özündə əks etdirir.

**3.11 Təhsil proqramında tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

Təhsil proqramında tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi gözlənilib. Mühazirələr, seminarlar, laboratoriya işləri və praktik məşğələlər təhsil proqramının məqsədlərinə və tələblərinə cavab verəcək şəkildə planlaşdırılır və təşkil edilir. Yəni, mühazırə, seminar və ya laboratoriya işlərinə ayrılan saatlar təhsil proqramı əsasında aparılır, dəyişiklik tələb olunan yerlər isə Elmi Şuranın müzakirəsinə təqdim olunur.Tədris yükünün bölüşdürülməsi zamanı bəzi müəllimlərin yüklərində balansın pozulması halları müşahidə olunub. Beləki, bəzi müəllimlərin dərs yükü bölünərkən semesterlər ərzində olan yükdə balans pozulmuşdu.

**3.12 Təhsil proqramı üzrə məsləhət xidmətinin təşkili vəziyyəti**

Təhsil proqramı üzrə İSM təhsil proqramında məsləhət xidməti (tyutor) fəaliyyət göstərir. Məsləhət xidməti üçün xüsusi otaqlar ayrılıb və həmin otaqlar internetə qoşulmuş kompüterlər və digər lazım olan avadanlıqlarla təchiz edilib. Sahə səfəri zamanı otaqlara baxış keçirilib. Tələbələrin məsləhət xidmətindən istifadə etmələrini əks etdirən cədvəl və ya təsdiqedici

sənədə rast gəlinmədi. İxtisas üzrə təyin olunmuş məsləhətçi ilə görüş zamanı kommunikasiyanın daha çox “Vatsap” üzərindən aparıldığı qeyd olundu.

**3.13 Təhsil proqramına uyğun müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti**

İSM ixtisasında tədris olunan bütün fənlərdə tələbələrə sərbəst işlər verilir. Sərbəst işlərin sayı, fənnin xüsusiyyətlərinə və uyğun təlim nəticələrinə əsasən müəllim tərəfindən müəyyənləşdirilir. Bu işlərin ümumi xüsusiyyətləri sillabusda öz əksini tapır və qiymətləndirmə meyarları da sillabuslarda qeyd olunur. Sərbəst işlər adətən müəllimin rəhbərliyi altında auditoriyadankənar vaxtlarda hazırlanır. İşlərin qəbulu son illərdə, əsasən, slaydlarla təqdimat formatında auditoriya şəraitində aparılır və əvvəlcədən müəyyən edilmiş meyarlara əsasən qiymətləndirilir. Sərbəst işlər, kafedralara təhvil verilməklə saxlanılır və adətən bir semestr boyu qalır. Sərbəst işlər müxtəlif formalarda (əl işi, komanda işi, təqdimat və s.) təqdim olunur.

**3.14 Təhsil proqramı üzrə təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti**

İSM ixtisası üzrə pedaqoji təcrübə işinin təşkili təhsil proqramının və qüvvədə olan tədris planlarının tələblərinə uyğun şəkildə həyata keçirilir. Bütün bu qaydalar “Pedaqoji təcrübədə iştirak edən tələbələrin qiymətləndirilməsi qaydaları”, sənədində öz əksini tapır. Son 4 ildə qüvvədə olan tədris planına əsasən pedaqoji təcrübə 21 kredit həcmində (14 həftə boyunca) təhsil müddətinin sonuncu semestrində keçirilmişdir. Hazırda isə cari tədris ilində qüvvədə olan tədris planına uyğun olaraq pedaqoji təcrübə (internatura) 30 kredit həcmində (20 həftə boyunca) sonuncu semestrdə nəzərdə tutulmuşdur. Pedaqoji təcrübə işi Naxçıvan şəhərindəki orta məktəblərdə həyata keçirilir. Bu məqsədlə əvvəlcə Naxçıvan MR Təhsil Nazirliyinə rəsmi müraciət edilir və nazirlik tərəfindən təsdiq edilərək hər bir məktəblə müqavilə imzalanır. Pedaqoji təcrübənin başlanğıc və son görüşlərində nazirlik, Naxçıvan Şəhər Təhsil Şöbəsinin rəhbərliyi və təcrübə keçilən məktəblərin rəhbərləri iştirak edir. Pedaqoji təcrübəyə hazırlıq, gedişi və nəticələri fakültənin və institutun Elmi Şurasının iclaslarında ətraflı şəkildə müzakirə olunur. Təcrübənin qiymətləndirilməsi yuxarıda da qeyd olunan müvafiq sənəd əsasında aparılır. Müvafiq məsələ ilə bağlı iclas protokollarında məlumatlara rast gəlindi.

**3.15 Təhsil proqramı üzrə stajkeçmənin təşkili vəziyyəti**

Təhsil proqramı çərçivəsində başqa müəssisələrdə stajkeçmə halları müxtəlif səbəblərə görə baş tutmamışdır. Sahə səfəri zamanı təhsilverənlərlə keçirilən görüşlərdə istər kafedralarda, istərsə də fakültələrdə təhsilverənlər üçün təlimlərin, seminarların, dəyirmi masaların keçirildiyi bildirilmişdir. Lakin keçirilən tədbirlərin mövzusu, intensivliyi və s. ilə bağlı təfsilatlı məlumat verilməmiş, təsdiqedici sənədlər təqdim olunmamışdır. Əlavə olaraq, institut əməkdaşların təkmilləşdirilməsi və peşəkar inkişafının təmin edilməsi üçün "İxtisasartırma və təkmilləşdirmə üzrə illik təqvim-tematik planı" hazırlayıb və institut Elmi

Şurası tərəfindən təsdiq olunub. ÖTH-də illik planın, bu sahədə institutun cavabdeh prorektorunun rəhbərliyi altında həyata keçirilən fəaliyyətlərin nəzərə alınaraq hazırlandığı və icra olunduğu qeyd edilsə də, sahə səfəri zamanı bunu təsdiq edən sənədə rast gəlinmədi.

### 3.16 Təhsil proqramı üzrə kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Təhsil proqramı çərçivəsində İSM ixtisasında kurs işi və referatların hazırlanması nəzərdə tutulmamışdır.

### 3.17 Təhsil proqramına uyğun buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyət

Son beş ildə rektorluğun vahid qərarı ilə buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili nəzərdə tutulmamışdır. Qərarın icrası təhsil proqramının tələbləri ilə ziddiyyət təşkil etməməkdədir.

### 3.18 Təhsil proqramı üzrə imtahan sessiyasının təşkili vəziyyəti

Təhsil proqramı çərçivəsində, semestr ərzində tələbələrin götürdüyü bütün fənlərə uyğun olaraq tədris imtahanlarla yekunlaşır. İmtahan sessiyasının təşkili kafedralar, fakültə və institut Elmi Şurasında müzakirə olunaraq təyin olunur. İmtahanlar əsasən yazılı formada keçirilir və hər bir imtahan üçün 5 sualdan ibarət bilet hazırlanır. Tələbələrin cavab vərəqələri şifrələnərək müəllim tərəfindən yoxlanılır. İmtahan sessiyası zamanı biliklərin obyektivliyini yoxlamaq məqsədilə şübhəli hallar və ya tələbələrin müraciəti əsasında Münaqişə Komissiyası tərəfindən monitorinqlər aparılır. Sahə səfəri müddətində təhsilverənlər tərəfindən bəzi fənlərdə imtahanların test formasında (məsələn, Məntiq fənni ), bəzilərinin isə qarışıq formada keçirildiyi qeyd olundu.

### 3.19 Təhsil proqramı üzrə yay semestrinin təşkili vəziyyəti

Yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na əsasən tənzimlənir. ÖTH-də son 5 ildə müəssisədə bir neçə dəfə yay məktəbinin təşkil olunduğu qeyd olunub. Lakin bununla bağlı Komissiyaya hər hansı təsdiqedici bir sənəd təqdim olunmadı.

### 3.20 Təhsil proqramı üzrə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Son dörd tədris ilində təhsil proqramına uyğun olaraq kredit borcu olan tələbələrin sayında artım müşahidə olunur. Aşağıdakı qrafikdən də göründüyü kimi, 2021-2022-ci tədris ilində kredit borcu olan tələbələrin sayı artıb, lakin son illərə doğru bu say azalmaqdadır.

| **Tədris ili** | **Tələbə sayı** | **Kredit borcu tələbə sayı** |
|---|---|---|
| 2019-2020 | 432 nəfər | 18 |
| 2020-2021 | 427 nəfər | 36 |
| 2021-2022 | 419 nəfər | 49 |
| 2022-2023 | 372 nəfər | 30 |

### 3.21 Təhsil proqramı üzrə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Təhsil proqramında fənlərin ümumi həcmi il ərzində dəyişməmişdir, ancaq borcu yaranmış fənlərin sayı və faizi illər arasında dəyişir:

| Tədris ili | Fənlərin ümumi həcmi | Kredit borcu yaranmış fənlər |
|---|---|---|
| 2019-2020 | 42 | 9 (faiz % 21.43) |
| 2020-2021 | 41 | 18 (faiz % 43.90) |
| 2021-2022 | 42 | 14 (faiz % 33.33) |

| | | |
|---|---|---|
| 2022-2023 | 42 | 11 (faiz % 26.19) |
| 2023-2024 | 42 | 21 (faiz % 50) |

Bu məlumatlardan görünür ki, kredit borcu yaranmış fənlərin sayı il ərzində dəyişir. 2023-2024-cü tədris ilində tələbələrin 21 fənndə (50%) kredit borcu yaranmışdır.

### 3.22 Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Sahə səfəri zamanı müsahibələrdə AK-a tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi, kafedra, fakültə dekanlığı və Elmi Şura tərəfindən daim müzakirə edildiyi bildirilmişdir. Lakin səmərəliliyin izlənilməsi vəziyyətinin qiymətləndirilməsi ilə bağlı Elmi Şura protokollarında hər hansı bir məlumata rast gəlinmədiyi üçün bu məlumatı dəqiqləşdirmək mümkün olmadı.

## 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları

### 4.1 Təhsil proqramı üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Sahə səfəri zamanı təhsil proqramı üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti ilə fakültə və kafedralarda kompetensiya xəritəsinin mövcud olduğu müşahidə olundu. Təlim nəticələrinin peşə kompetensiyalarına uyğunlaşdırılıması müşahidə edildi. Əsas fənlərin təlim nəticələri təhsil proqramına uyğun yazılıb, seçmə fənlərin təlim nəticələri isə yenidən tərtib edilib. Sahə səfəri zamanı müşahidə olundu ki, həmin məlumatlar tələbələrə sənəd şəklində "Vatsap" vasitəsilə ötürülüb. FTN-lər fənn proqramları, dərsliklər və metodik vəsaitlərdə öz əksini tapsa da, interaktiv metod və texnologiyaların istifadəsi ilə bağlı hər hansı bir qeydə rast gəlinmədi. Sahə səfəri zamanı dərs dinləmələrdə tədris prosesində interaktiv metodların tətbiqi yer alsa da, dərslər daha çox ənənəvi üsulla təşkil olunur.

### 4.2 Təhsil proqramı üzrə tədris metodlarında tələbə yönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Tədris prosesində tələbələrin innovativ və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirmək üçün tələbəyönümlü və problemyönümlü tədris metodlarından qismən istifadə olunduğu müşahidə edildi. Əlavə olaraq, dərslərin tədrisi zamanı elektron lövhə və təqdimatlardan

istifadə olunduğu, təhsilalanların sərbəst işlərini də elektron təqdimat formatında təqdim etdiyi qeyd olundu. Kafedralara baxış zamanı tələbə işlərinin qovluqlarına rast gəlindi. Burada fərdi və qrup formasında aparılan tapşırıqların olduğu müşahidə olundu. Məsələn, qruplar yaradılmış, adlar verilmiş və müxtəlif mövzular ətrafında işlər təşkil edilmişdir. Gəlinən nəticə, istifadə olunan metodlar və s. sənəd, şəkil və diskdə təqdimat kimi kafedrada saxlanılıb. Bununla yanaşı, sərbəst işlərə yanaşma da fərqli metodları əks etdirirdi. Məsələn, Texnologiya fənnindən hazırlanan sərbəst işlər tələbələrin bacarığına yönəlib, nəticədə həm nəzəri (təqdimatlar), həm də praktik işlər (qaşlar, muncuqlar, iplər və s. ilə işlər) ərsəyə gətirilib.

### 4.3 Təhsil proqramı üzrə tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

İSM proqramı yalnız əyani formada həyata keçirilir. Proqramda sual-cavab, qruplarla iş, mövzular üzrə təqdimatlar, yazılı tapşırıqlar və açıq mühazirələr kimi metodlar geniş istifadə edilir. Elektron lövhə və təqdimatlarla keçirilən dərslər tələbələrin dərs prosesinə daha fəal qoşulmasına və motivasiya olunmasına kömək edir. Tələbələrə əvvəlcədən təlim nəticələri haqqında məlumat verilir və bu nəticələrin əldə olunmasını təmin edən müxtəlif metodlar tətbiq olunur. Sərbəst işlər və fərdi layihələr tələbələrin fərdi xüsusiyyətlərinə uyğun olaraq tərtib edilir. Sahə səfəri zamanı bəzi dərslərdə tələbələrin ilkin biliklərinin yoxlanılması müşahidə olundu.

### 4.4 Təhsil proqramı üzrə tətbiq edilən tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının istifadəsi vəziyyəti

Sahə səfəri zamanı dərslərdə tədris metodlarının dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmaları əsasında aparıldığı bildirildi. Dərs saatlarından əlavə tələbələr üçün auditoriyadankənar saatlar nəzərdə tutulub. Bu saatlarda tələbələr onlar üçün ayrılmış auditoriyalara gələrək sərbəst işləyirlər. Onlara nəzarət üçün müəllim ayrılsa da, əksər hallarda tələbələrin sərbəst çalışmağa meyilli olduqları otaqlara baxış zamanı müşahidə olundu. Eyni zamanda kitabxanada da tələbələr həm öyrənir, həm də ictimai işə dəstək olurdular. Buna misal olaraq, yeni kitabların qeydiyyata alınması və onların qısa xülasəsinin hazırlanmasında tələbələrin dəstəyini qeyd etmək olar.

### 4.5 Təhsil proqramı üzrə tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

Təhsilverənlərlə görüş zamanı hər semestrin əvvəlində tələbələrin biliklərinin yoxlanılması üçün diaqnostik testlərin aparıldığı, fənn sillabusları hazırlanarkən tədris planından kənara çıxmadan mövzu və tədris üsulların təhsilalanların ilkin bilik səviyyəsi və bacarıqlarına uyğun olaraq formalaşdırıldığı və dərs prosesində də fərdi yanaşmaların tətbiq edildiyi qeyd olundu. Bura fərdi və qrup işləri, debatlar, təqdimatlar və s. daxil edilir. Sərbəst işlərin verilməsində tələbələrin fərdi xüsusiyyətləri və ilkin bilik səviyyələri nəzərə alınır. Lakin bu yanaşmaların tətbiqini tənzimləyən bir mexanizm olmadığı üçün qiymətləndirməni tam aparmaq mümkün olmadı.

### 4.6 Təhsil proqramı üzrə tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

İnstitutda tətbiq olunan texnoloji imkanlar, elektron lövhəli və proyektorlu auditoriyalar təhsilalanlar üçün lazımi şərait yaradır. Sahə səfəri müddətində tələbələrin dərs müddətində və dərsdən sonra kompüterlərdən sərbəst istifadə edə bildikləri qeyd olundu. Dərs dinləmələri zamanı da müəllimlərin ağıllı lövhələrdən istifadəsi görüldü. Amma bu bacarıqlar sadəcə təqdimatla yekunlaşırdı, tələbələrin öyrəndiklərinin praktikada tətbiqi və tələbəyönümlü yanaşmalarla bağlı konkret bir təcrübəyə rast gəlinmədi.

### 4.7 Təhsil proqramı üzrə yeni təlim və tədris metodlarının və interaktiv öyrənməyəni təşviq etmə vəziyyəti

Təhsil proqramı üzrə yeni təlim və tədris metodlarını və interaktiv öyrənməni təşviq etmək üçün addımlar atılır. Müəllim-professor heyəti bacardıqları qədər yeni təlim metodlarına müraciət etsələr də, bəzi çatışmazlıqların olduğu müşahidə olundu. Qrupdakı tələbə sayının çox olması, arxa sıralardan lövhənin tam oxunmaması kimi məsələləri misal gətirmək olar. Müəllim təqdimatları rəngarəng hazırlasa da, bəzi mövzularda müzakirəyə vaxt ayırmırdı. Yəni, dərs müddətində interaktivliyin az olmasının səbəbi müəllimin daha çox mühazirə texnikasına üstünlük verməsinin nəticəsi idi. Yekun olaraq, tədrisin daha çox müəllim mərkəzli olduğu qeyd oluna bilər.

### 4.8 Təhsil proqramı üzrə tədris metod və üsullarının dövrü olaraq monitorinq və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

İnstitutda tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsinin həyata keçirildiyi bildirildi. Müsahibələr və sənədlərə baxış keçirərkən aşağıdakılar müşahidə olundu:

- Müəllimlər fənnin mənimsənməsi ilə bağlı sorğular aparır və təhlil edib hesabat yazır (sorğu vərəqləri);
- Sillabuslara digər müəllimlər rəy verir və dəyişikliklər qeydə alınır (sillabusların sonundakı imzalı rəy formaları);
- Kafedra müdirləri və fakültə dekanı tərəfindən açıq dərslərə nəzarət edilir (açıq dərs cədvəlləri);

| |
|---|
| ● Dəyişikliklərlə bağlı kafedra iclasları keçirilir (iclas protokolu). |

## 5. Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları

### 5.1 Təhsil proqramı üzrə öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

| |
|---|
| İnstitutda öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi tətbiq olunmur. Müəllimlərlə və tələbələrlə müsahibələrdən məlum oldu ki, ən çox əlaqə Vatsapvasitəsilə həyata keçirilir. Elektron məktubla qarşılıqlı əlaqə daha çox şəxsi xarakter daşıyır və bu, vahid peşəkar ünsiyyət platformasının olmadığını göstərir. Bəzi iclasların və auditoriyadankənar saatların keçirilməsində isə “Zoom” platformasından istifadə olunur. Digər tərəfdən, tədris materialları, o cümlədən mühazirə mətnləri və imtahan cədvəlləri institutun rəsmi internet saytında yerləşdirilib. Bundan əlavə, tədris proqramlarının və mühazirə mətnlərinin elektron versiyaları tələbələrin telefonlarında mövcuddur ki, bu da xüsusi elektron idarəetmə sisteminin olmamasına baxmayaraq, müəyyən səviyyədə əlçatanlığı təmin edir. Bu hazırkı tətbiq institutda ümumi öyrənmə və tədris təcrübəsini artırmaq üçün daha inteqrasiya olunmuş və səmərəli sistemə ehtiyac olduğunu vurğulayır. |

### 5.2 Təhsil proqramı üzrə müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

İnstitut proyektorlar, interaktiv lövhələr və kompüterlərlə təchiz olunmuş müasir sinif otaqlarına malikdir və bu, interaktiv tədrisi asanlaşdırır. İnstitutla tanışlıq zamanı interaktiv lövhələrin mövcudluğundan xəbər verən “smart board” otaqları kimi ayrılmış bir neçə auditoriyanın olduğu müşahidə edildi. Bundan əlavə, tələbələrin təhsilləri üçün lazımi texnoloji resurslara malik olmalarını təmin edən, hamısında internetə çıxış olan və dərs saatlarında fəaliyyət göstərən 150 kompüterdən ibarət dörd kompüter laboratoriyası mövcuddur. Auditoriya fondu interaktiv öyrənmə təcrübəsini daha da gücləndirən 16 interaktiv lövhə və proyektordan ibarətdir. İnstitutda həmçinin günəş panellər və 3D lazer printer ilə təchiz edilmiş müasir STEAM otağı da var. Bu otaq xüsusi olaraq elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat fənlərinin mənimsənilməsini dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Bu vasitələr həmçinin tələbələrə qabaqcıl texnologiyadan istifadə edərək praktiki öyrənmə imkanları təqdim edir. Ümumilikdə, institutun infrastrukturu tələbələrin öyrənmə və məşğulluq imkanlarınızənginləşdirmək üçün ənənəvi tədris üsullarını qabaqcıl texnologiya ilə birləşdirərək möhkəm və müasir təhsil təcrübəsini dəstəkləyir.

### 5.3 Təhsil proqramı üzrə tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

NMİ-də tələbələrin təlim prosesində iştirakını və aktivliyini qeydə alan tam funksional elektron tədris platforması və elektron jurnal mövcud deyil.

### 5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

ATM-də rəqəmsal xidmətlərin tədris prosesinə inteqrasiyası hələ də ilkin mərhələdədir. Təqdim olunan texniki dəstək ilk növbədə təhsil proqramlarının dəstəklənməsinə yönəlib. Auditoriyalar interaktiv öyrənməni asanlaşdırmaq üçün interaktiv lövhələr və proyektorlarla təchiz edilib. Tələbələr sürətli internetə, güclü yerli şəbəkəyə, məlumat bazalarına və müəssisənin xüsusi axtarış sistemlərinə çıxış əldə ediblər. Elektron kitabxanalara çıxış bir qədər məhduddur, lakin bunun genişləndirilməsi üçün səylər göstərilir. Kitabxana fondunda olan nəşr edilmiş kitablar “PDF” formatında rəqəmsallaşdırılır və kompüter məlumat bazalarına əlavə edilir. Bu rəqəmsal kitablara tələbələr və müəllimlər kompüter və ya mobil cihazlar vasitəsilə skan edilə bilən QR kodlar vasitəsilə daxil ola bilirlər. Bundan əlavə, tələbələrin elektron istifadəsi üçün rəqəmsal sənədləri asanlıqla çap etməyə və ya fiziki materialları rəqəmsallaşdırmağa imkan verən pulsuz çap və skan xidmətlərindən istifadə etmək imkanı var.

### 5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

İnstitut təhsil proqramlarını dəstəkləmək üçün auditoriyaları lazımi avadanlıqlarla təchiz etmişdir. Burada internetə çıxışı olan 150 kompüter, o cümlədən dörd yaxşı təmirli kompüter laboratoriyasında 80 kompüter var. Hər bir laboratoriyanın onlayn resurslara daxil olmaq və tədqiqat aparmaq üçün vacib olan etibarlı internet bağlantısı var.

### 5.6 Təhsil proqramı üzrə auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

İSM təhsil proqramı üzrə 8 mühazirə, 10 məşğələ, 9 tədris laboratoriyası olmaqla, cəmi 27 auditoriya mövcuddur. Auditoriyalar tədris istiqamətinə görə 50-70 nəfərlik (mühazirə auditoriyaları), 20-30 nəfərlik (məşğələ auditoriyaları), 12-16 nəfərlik (laboratoriya otaqları) auditoriyalara bölünür. Auditoriya fondu 4834 kv.m., ümumi tələbə sayı 433 nəfərdir. Bunlardan əlavə institutda mətbəə, qarderob, yeməkxana və tibb otağı da mövcuddur. Ümumilikdə, institutda 1400 tələbə təhsil alsa da, auditoriyalar 1700 tələbəni qəbul edə bilər. Sahə səfəri müddətində bəzi auditoriyalarda pəncərələrin kiçik olması nəticəsində otaqlarda havalandırma sisteminin zəif olduğu müşahidə edildi.

### 5.7 Təhsil proqramı üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

ATM-də akademik heyətin fəaliyyəti üçün 230 kv.m. sahəsi olan 6 otaq, inzibati heyətin fəaliyyəti üçün 1060 kv.m. sahəsi olan 45 otaq təmin edilmişdir. Sahə səfəri zamanı bildirildi ki, ATM-də tədris üçün nəzərdə tutulmuş mövcud auditoriya fondu hazırkı tələbə sayından daha artıq tələbəyə xidmət etmək imkanlarına malikdir. Tələbələrin sayı artdığı təqdirdə belə, mövcud infrastruktur bunu qarşılamaq üçün yetərlidir.

### 5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) təhsil proqramı üzrə tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

NMİ-də elektron kitabxananın təkmilləşdirilməsi ilə əlaqədar işlər aparıldığı bildirildi. Bu təşəbbüsə digər kitabxanalarla əlaqələrin yaradılması və elektron oxu otaqlarının yaradılması daxildir. Sahə səfəri zamanı məsul şəxslərlə keçirilən görüşdə qeyd edildi ki, kompüterlərin sayının artırılması məsələsi daim nəzarətdə saxlanılır. Sözügedən məsələ təqdim olunmuş sənədlərdə də öz əksini tapmışdır. Belə ki, cari ehtiyacları ödəmək üçün smeta hazırlanmışdır. Bu təkmilləşdirmələrə baxmayaraq, mövcud kitab resurslarının həcmi məhdud olaraq qiymətləndirildi. Kitabxanada 22 nəfərlik oxu zalı və 12 nəfərlik elektron oxu zalları var. Qeyd edək ki, internetə qoşulmuş kompüterlərin proqram üzrə təhsilalanların ümumi sayına nisbəti 33,3% təşkil edir.

### 5.9 Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Dərslik və dərs vəsaitlərinin artımı müəllimlərin hesabına baş verir. Müsahibələr zamanı müəyyən edilmişdir ki, son dövrlərdə kitabxanaya daxil olan dərs vəsaitlərinin əksəriyyəti ATM-ə hədiyyə edilmişdir. Kitabxana fonduna bunun üçün maliyyə vəsaiti ayrılmamışdır. Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti 1/3-dir. 2021-2022-ci illərdə artım (100+) olsa da, 2023-cü ildə bu rəqəm 15-dir.

### 5.10 Təhsil proqramı üzrə tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Son beş ildə kitabxana fonduna daxil olan dərs vəsaitlərin sayı azalıb. 2022-ci ildə 193 vəsait daxil olubsa, 2023-cü ildə bu rəqəm əhəmiyyətli dərəcədə azalaraq cəmi 15-ə düşüb.

| İllər | Təhsil proqramı üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu | Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaiti (elektron və çap şəklində) | Təhsil proqramı üzrə tədris dillərinə uyğun kitab fondu | Təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmi |
|---|---|---|---|---|
| 2019 | 2 | 89 | 273 | 5800 |
| 2020 | | 39 | | 6400 |
| 2021 | | 112 | | 7000 |
| 2022 | | 193 | | 9000 |
| 2023 | | 15 | | 10800 |

Cədvəl 3. Kitabxana və digər tədris resursları

Qeyd edildiyi kimi, kitabların əksəriyyəti kitabxanaya müəllimlər tərəfindən hədiyyə kimi təqdim edilib. Kitab fonduna daxil olan kitabların 3 dildə olması nəzərə alınsa da, ümumi artım dinamikasının aşağı olduğu qeyd olunmalıdır. Ən son məlumatlardan çıxış edərək qeyd edilməlidir ki, 2022-ci ildəki 193 yeni kitabın 2023-cü ildə 15-ə enməsi azalmanın təxminən 92,2% təşkil etdiyini deməyə əsas verir ki, bu da əhəmiyyətli dərəcədə azalma deməkdir. Bu azalma kitabxana üçün yeni resursların əldə edilməsiüçün yeni yanaşma strategiyalarına ehtiyac olduğunu vurğulayır.

### 5.11 Təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası göstərilsə də təsdiqedici sənəddə bu öz əksini tapmadı. 2022-ci ildə bu say 193 kitab göstərilərkən, ayrılmış vəsait 9000 AZN olduğu halda, 2023-cü il üzrə isə yalnız 15 kitab fonda daxil olsa da təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmi 10800 AZN təşkil etmişdir.

### 5.12 Təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Son beş ildə təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılmış və yenilənəcək proqramların siyahısı hazırlanıb. Son 5 ildə təhsil proqramı üzrə bir sıra fənn proqramları, dərslik, dərs və metodik vəsaitlər çap edilmiş, müasir tədris avadanlıqları alınmışdır. Bəzi proqramlar, dərslik, dərs və metodik vəsaitlərə çap hüququ (qrif) əldə etmək üçün ARETN-ə məktubla müraciət olunub və müvafiq qrif alınıb. Seçmə fənlərin proqramları isə Elmi Şurada təsdiq edilib. Təlim və tədris resurslarının mövcudluğu və yenilənməsi ilə bağlı məsələlər mütəmadi olaraq kafedra, fakültə və Elmi Şurada müzakirə olunur, bu sahədə vəziyyət qiymətləndirilir və zəruri tədbirlər görülür. Müzakirələr öz əksini iclas protokollarında tapıb.

### 5.13 Təhsil proqramı üzrə təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

Kitabxana oxucularına həm ənənəvi çap, həm də elektron formatda əldə edilə bilən müxtəlif tədris və təlim materialları təklif edir. Bu resurslar bir çox kanallar vasitəsilə yayılır: bəziləri institutun rəsmi saytına yüklənir, digərləri isə elektron məktub və ya Vatsap vasitəsilə tələbələrə göndərilir. Tələbələrlə söhbət nəticəsində bu faktlar öz təsdiqini tapdı və bu cür tətbiqlərin təlim prosesinə pozitiv töhfələr verdiyi vurğulandı. Tələbələr kitabxanada mövcud olan materialların elektron variantlarını elektron daşıyıcılarda almaq imkanına malikdirlər. Beləliklə tələbələr dərsliklər, metodik nəşrlər, tezislər, dissertasiyalar və elmi jurnallardakı məqalələr də daxil olmaqla geniş çeşiddə materiallara rahat çıxış əldə edirlər. Üstəlik, bu materialların elektron versiyaları əldə oluna bilər ki, bu da tələbələrə elektron cihazlarında onlara daxil olmaq imkanı verir. Kitabxana resurslarının həm elektron, həm də ənənəvi çap materialları olaraq şaxələndirilməsi təhsilalanların müxtəlif öyrənmə ehtiyacları və tədris olunan fənnlərin tələblərini qarşılayır.

### 5.14 Təhsil proqramı üzrə təhsil alan sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

İSM təhsil proqramı üzrə təhsil kontingenti içərisində son beş ildə sağlamlıq imkanları məhdud şəxslər olmadığından uyğunlaşdırılmış tədris resurslarına ehtiyac olmadığı, amma

lazım olarsa, belə resursları təmin etmək imkanının mövcud olduğu bildirildi. Lakin binaya baxış keçirərkən belə imkanları (pandus, lift və s.) reallaşdırmaq üçün potensialın olmadığı aşkarlandı.

### 5.15 Təhsil proqramı üzrə təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Fakültə və kafedralardan daxil olan sorğular əsasında yeni tədris vəsaitlərin alınması, tədris resurslarının davamlı artımı, eləcə də təlim və tədris resurslarının məzmunlarının kafedralarda müzakirə olunaraq təkmilləşdirilməsinin həyata keçirilirdiyi bildirilsə də, nə sorğu formalarına, nə də qeydlərə rast gəlinmədi. Əlavə olaraq, sənədlərin olmaması resurs əldə etmək və təkmilləşdirmək üçün sistematik yanaşmada boşluq olduğunu göstərdi. Bu uyğunsuzluq, xüsusilə, kitabların kifayət sayda nüsxəsinin olmamasında özünü göstərir və təhsil proqramının təkmilləşdirilməsi səylərinə mane olur. Üstəlik, standartlardakı dəyişikliklərə baxmayaraq, müəyyən dərsliklərin yenilənmiş nəşrlərinin mövcud olmaması resurs idarəetməsi ilə proqram tələbləri arasında əlaqənin kəsilməsini vurğulayır. Bəzi kitabların yalnız 1 və ya 2 nüsxədə mövcud olması əlçatanlıq göstəricisini aşağı salır. Resurs boşluqlarını aradan qaldırmaq üçün lazımi vəsaitlər və təkmilləşdirilmiş dərsliklər olmadan, təhsil təcrübəsinin keyfiyyəti və aktuallığı azalmış olur.

## 6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza

### 6.1 Təhsil proqramı üzrə tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

İSM ixtisası üzrə 27 tədris auditoriyası mövcuddur. Bu otaqların 2-si zirzəmidə (otaqların havalandırma sistemi yoxdur), 3-ü birinci mərtəbədə, 2-si ikinci mərtəbədə, 8-i dördüncü mərtəbədə, 10-u isə beşinci mərtəbədə yerləşir. Bu auditoriyaların 6-sı mühazirə, 13-ü məşğələ, 8-i isə tədris laboratoriyalarına aiddir. İSM ixtisasının istifadə etdiyi ümumi auditoriya fondunun sahəsi 4834 kvadrat metr təşkil edir. 433 tələbə olduğuna görə, hər tələbəyə düşən faydalı sahə 11.2 kvadrat metrdir və bu göstərici standartlara tam uyğundur. Auditoriyalardan 8-i elektron lövhələrlə təchiz edilmişdir. Dərslər iki növbədə keçirildiyindən, auditoriya və auditoriyadankənar dərslərin təşkilində heç bir çətinlik yaranmır.

### 6.2 Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının mövcudluğu vəziyyəti

NMİ-nin kitabxana fondu həm kağız, həm də elektron kitablardan ibarətdir. Kitabxanada həm ənənəvi, həm də elektron oxu zalı mövcuddur. Elektron oxu zalında internetə qoşulmuş və oxucuların istifadəsinə verilmiş 13 kompüter dəsti vardır. İSM ixtisası üzrə hər iki formada (kağız və elektron) müəyyən sayda kitablar mövcuddur, bu da tələbələrin müxtəlif formalarda bilik əldə etməsinə imkan yaradır. Lakin yeni kitabların alınmaması, sadəcə

müəllimlərin öz hesabına və hədiyyələr əsasında artırılması resurs təminatında çətinlik yaradır. Kitabxana fondunun zənginləşdirilməsi istiqamətində müəyyən işlər görülür. Xüsusilə, QR kod vasitəsilə elektron kitabxanaya daxil olmaq imkanı təmin edilərək, tələbələrə daha rahat və əlçatan resurslara çıxış imkanı yaradılır. Bu yanaşma kitabxana xidmətlərinin müasir tələblərə uyğunlaşdırılmasına və təhsil prosesinin effektivliyinin artırılmasına xidmət edir.

### 6.3 Təhsil proqramı üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti

İSM ixtisası üzrə son beş il ərzində təhsil proqramlarının və tədris bazasının təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görüldüyü sahə səfəri zamanı Komissiyaya bildirilib. Bir sıra fənn proqramları yenilənmiş və bu proqramlar kafedralarda, dekanlıqda və Elmi Şurada müzakirə edildikdən sonra təsdiq edilib. Əsas fənlərdən son beş il ərzində 30-a yaxın fənn proqramı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyindən təsdiq (qrif) alıb. Əməkdaşlar tərəfindən 10-a yaxın dərslik, dərs və tədris-metodik vəsait hazırlanıb. İSM ixtisası üzrə "Pedaqoji təcrübənin təşkili və aparılmasına dair" metodik vəsait və müvafiq əsasnamə tərtib edilib. Həmçinin, sərbəst işlərin qiymətləndirilməsi üçün ümumi meyarlar müəyyən edilib ki, bu da tədrisin keyfiyyətini və qiymətləndirmənin obyektivliyini təmin edir.

### 6.4 Təhsil proqramı üzrə tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

İnstitutda 4 kompüter otağı mövcuddur və hər bir otaqda internetə qoşulmuş 20 kompüter var. Həmçinin, institutda texnologiya, musiqi, STEAM, psixologiya, mülki müdafiə, kulinariya, ebru, anatomiya və digər sahələr üzrə xüsusi otaqlar da mövcuddur. ATM akt zalı, elektron lövhə ilə təchiz olunmuş 8 auditoriya və internet bağlantısı ilə təmin olunub. Bu infrastruktura əlavə olaraq, daim işlək vəziyyətdə olan “Zoom” proqramı distant təhsilin həyata keçirilməsinə imkan yaradır. Bu şərait tələbələrin müasir tədris metodlarına uyğun təhsil almaları və müxtəlif sahələrdə praktiki biliklər əldə etmələri üçün geniş imkanlar yaradır.

### 6.5 Təhsil proqramı üzrə istehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Pedaqoji təcrübə Naxçıvan şəhərinin qabaqcıl və yüksək maddi-texniki bazaya malik məktəblərində təşkil olunur. Bu məktəblərdə pedaqoji təcrübənin standartlara uyğun təşkili üçün şərait yaradılıb. Tələbələr bu məktəblərdə praktiki biliklərəldə edərək, müasir tədris metodları və resursları ilə tanış olurlar. Belə şərait onların peşəkar bacarıqlarını inkişaf etdirməyə və gələcəkdə daha keyfiyyətli pedaqoji fəaliyyət göstərmələrinə imkan yaradır. Müəssisəyə səfər zamanı 4-cü kurs tələbələrinin təcrübədə olduqları bildirildi.

### 6.6 Təhsil proqramı üzrə distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Hal-hazırda, distant təhsil formasından istifadə olunmur. Pandemiya dövründə bütün müəllim və tələbələrin elektron hesabları yaradılmış və istifadə ilə bağlı təlimlər təşkil edilmişdir. Sahə səfəri zamanı bildirildi ki, cari vəziyyətdə institutda distant təhsil üçün zəruri infrastruktur mövcuddur. Distant təhsilin təşkili üçün “Zoom” və “Microsoft” proqramları, eləcə də digər vasitələr istifadə edilir. Bu auditoriyalar və daim işlək vəziyyətdə olan “Zoom” proqramı, tələbələrə və müəllimlərə effektiv distant təhsil imkanı yaradır. Bu infrastruktur tələbələrin müasir tədris metodlarına uyğun təhsil almalarını və dərslərin fasiləsiz şəkildə aparılmasını təmin edir. Auditoriyalar, kompüterlər uyğun olsa da, sahə səfərində tələbələrlə müsahibə zamanıonların proqramlara çıxışının olmadığı və Outlook üzərindən kommunikasiya imkanlarından istifadə etmədikləri məlim oldu. Əksər tələbələr hər bir işin Vatsap üzərindən aparıldığını qeyd etdi, bəziləri isə korporativ deyil, şəxsi elektron ünvanlarını isifadə etdiklərini bildirdilər.

### 6.7 Təhsil proqramı üzrə tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

Əsas tədris resursları (mühazirə mətnləri, sillabuslar, cədvəllər, imtahan sualları) institutun rəsmi saytında (https://www.nmi.edu.az/elektron-v%c9%99saitl%c9%99r/ yerləşdirilir və tələbələr üçün əlçatandır. Kitabxana və tədris laboratoriyaları hər gün saat 09:00-dan 18:00-dək tələbələrin istifadəsi üçün açıqdır. Sahə səfəri zamanı müxtəlif strukturlar arasında Vatsap üzərindən kommunikasiyanın müəllimlərlə tələbələr arasında daha səmərəli ünsiyyət imkanı yaratdığını, belə əlaqənin işin daha operativ aparılmasına təsir etdiyini bildirdilər.

### 6.8 Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Son 5 ildə proqramda təhsil alan və sağlamlıq imkanı məhdud tələbə olmayıb. Bu barədə həm ÖTH-də, həm də sahə səfəri zamanı rəhbər heyətlə görüşlərdə məlumat qeyd olundu. Belə bir hal olarsa, onun üçün uyğun şərait olduğu bildirilsə də, sahə səfəri zamanı binaya baxış keçirilərkən belə bir şəraitin mövcud olmadığı, sağlamlıq imkanı məhdud tələbələr üçün lift və pilləkəndə xüsusi yerlərin ayrılmadığı müşahidə olundu.

### 6.9 Təhsil proqramı üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması

Son beş il ərzində tədris infrastrukturunun vəziyyəti Elmi Şurada, rektorat və fakültədə müzakirə olunub və bu sahədə təkmilləşdirmə işləri daima diqqətdə saxlanılıb (təsdiqedici sənəd: ATM tərəfindən TKTA-ya təqdim olunmuş “Texniki baza və sosial-məişət şəraiti” adlı sənəd). İnstitut rəhbərliyi və müvafiq strukturlar, tədris mühitinin və imkanlarının müasir tələblərə cavab verməsi üçün davamlı olaraq tədbirlər görüb və infrastrukturu yeniləmək məqsədilə müxtəlif layihələr həyata keçirib.

## 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

### 7.1 Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

İSM proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi 100 ballıq qiymətləndirmə sistemi əsasında aparılır. Qiymətləndirmə prosedur və qaydaları hər bir fənnin sillabusunda öz əksini tapır. Sahə səfəri zamanı sərbəst işlərin, kollokviumların və pedaqoji təcrübənin qiymətləndirilməsi ilə bağlı institutun əsasnamələrinin olduğu təsdiqlənmişdir.

### 7.2 Təhsil proqramı üzrə qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Semestr ərzində tələbələrin bir fənndən toplaya biləcəyi maksimum 100 balın əsas hissəsini (10 bal davamiyyət, 10 bal sərbəst iş, kollokviumlar, 50 bal yekun imtahan) necə toplaya biləcəyi aydındır və fənn sillabuslarında öz əksini tapır. Lakin gündəlik qiymətləndirmələr, əsasən, şifahi şəkildə aparıldığı üçün bu, ölçmənin etibarlılığını aşağı salır. Bəzi fənn sillabusları ilə tanışlıq zamanı gündəlik seminar dərslərinin qiymətləndirilməsində istifadə edilən qiymətləndirmə meyarlarının ölçüləbilən olması ilə  bağlı problemli məqamlara rast gəlinmişdir. Məsələn, səkkiz bal üçün qeyd olunmuş qiymətləndirilmə meyarı kimi, “Keçmiş dərslərə dair verilən sualların bəzilərinə cavab verə bilir” göstərilmişdir. Qiymətləndirmə meyarında “Bəzi” anlayışının nədən ibarət olduğu, tələbənin düzgün cavablandırmalı olduğu sual sayının neçə olduğu aydın şəkildə ifadə edilməmişdir. Qiymətləndirmə meyarlarının dəqiq olmaması qiymətləndirmə nəticələrində  subyektivliyi artırır və nəticələrin müqayisə olunmasını çətinləşdirir. Eyni məqam “Kollokviumların təşkili haqqında Əsasnamə” ilə tanış olduqda da özünü büruzə vermişdir. Əsasnamədə 8 bal - “Tələbə cavabında ümumi xarakterli bəzi səhvlərə yol verir” kimi izah edilmişdir ki, burada da “Ümumi xarakterli” və “bəzi” dedikdə hansı anlayışların nəzərdə tutulduğu, tələbələrin düzgün və yanlış cavablarının sayının neçə olduğu göstərilməmişdir. Qeyd olunduğu kimi qiymətləndirmə meyarlarında olan bu kimi  bu kimi məqamlar meyarların ölçüləbilənliyini azaldır və nəticədə təhlil imkanlarını məhdudlaşdırır.

### 7.3 Təhsil proqramı üzrə qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.)  metod və vasitələrdən istifadə olunması vəziyyəti

İSM proqramında istər kollokviumların təşkili, istərsə də yekun qiymətləndirmə zamanı, əsasən, yazılı (bilet tipli) imtahandan, cari qiymətləndirmələr zamanı isə şifahi qiymətləndirmədən istifadə olunur. Lakin fənnin məzmununa uyğun olaraq, bəzi fənlər üzrə fərqli qiymətləndirmə formalarından da istifadə olunur. Nümunə kimi, sahə səfəri zamanı institutun Texnologiya mərkəzində nümayiş etdirilən, tələbələr tərəfindən Texnologiya fənninin sərbəst işi kimi hazırlanmış əl işlərini göstərmək olar. Qiymətləndirmənin layihə

əsaslı, açıq kitab, simulyasiya tipli və s. kimi çoxsaylı formaları olsa da, İSM-də yalnız ənənəvi qiymətləndirmə metod və vasitələrinə rast gəlinmişdir.

**7.4 Təhsil proqramı üzrə qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti**

Təhsil proqramında cari qiymətləndirmələr, kollokviumlar, sərbəst işlər və imtahanların aparılması və yoxlanılmasında ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması vəziyyəti kafedra, fakültə və institut Elmi Şurasında vaxtaşırı müzakirə olunur. İmtahan sessiyası dövründə Münaqişə Komissiyası fəaliyyət göstərir. Bu komissiyada tələbələr, dekanlıq, kafedra və fənn müəllimi, tyutor təmsil olunur. Şikayət olunan imtahan işinin yenidən yoxlanılması başqa müəllim tərəfindən aparılır. Müxtəlif tərəflərlə müsahibələr zamanı qeyd olundu ki, əsasən, rektorun göstərişi ilə tələbə imtahanda zamanı keçmədiyi sualla qarşılaşırsa, o sualın qarşısına “bu sualı keçməmişik” yazır və doğruluğu təsdiqlənərsə, məsələ tələbənin xeyrinə həll edilir. Ümumi qiymətləndirmə nəticələri ilə tanışlıq zamanı tələbələrin imtahana giriş balı ilə, yekun imtahan balı arasında uyğunsuzluq müşahidə edilmişdir. Nümunə üçün, I kursa tədris olunan fənlərdən birində imtahana qədərki orta bal 43 bal təşkil etdiyi halda, imtahan üzrə orta bal cəmi 24 bal olub.

**7.5 Təhsil proqramı üzrə qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti**

Təhsil proqramı üzrə fənlərin tədrisi və qiymətləndirilməsi zamanı müəllimlər tərəfindən müxtəlif forma, metod və üsullar istifadə olunur. Müsahibələr zamanı bəzi fənlər üzrə mühazirələrin hazırlanmasının tələbələrə tapşırıldığı, bunun da tələbənin sərbəst öyrənmə, araşdırma istəyinə xidmət etdiyi qeyd edildi. Özünütəhlil Hesabatında “Bəzi hallarda tələbələrin seminar dərslərində yazılı verdiyi cavablar digər tələbələr tərəfindən qiymətləndirilir” qeydi var idi. Sahə səfəri zamanı təhsilverənlərlə müsahibələr əsasında, bu qiymətləndirmələrin əsasən formativ, yəni öyrədici xarakter daşıdığı, heç bir halda jurnala qeyd olunmadığı vurğulandı.

**7.6 Təhsil proqramı üzrə qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti**

Proqram üzrə qiymətləndirmələr, əsasən, yazılı və ya şifahi formada təşkil edildiyi üçün İKT vasitələrinə çox da ehtiyac yaranmır. Lakin müxtəlif tərəflərlə söhbət zamanı tələbələrin sərbəst işlərini, əsasən, təqdimatlar (slaydlar) şəklində təhvil verdikləri bildirildi.

**7.7 Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti**

Son 5 ildə sağlamlıq imkanı məhdud tələbə olmadığından xüsusi qiymətləndirmə üsullarından istifadə edilməyib.

**7.8 Təhsil proqramı üzrə cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

Cari və aralıq qiymətləndirmələr, əsasən, şifahi şəkildə aparıldığı üçün bu, ölçmənin etibarlılığını aşağı salır. Fənn sillabuslarından bəziləri ilə tanışlıq zamanı gündəlik seminar qiymətləndirilməsində istifadə edilən qiymətləndirmə meyarlarının ölçüləbilən olması ilə də bağlı problemli məqamlara rast gəlindi. Qiymətləndirmə meyarlar şəffaf, obyektivlik prinsipi əsasında əvvəlcədən konkretləşmədiyi üçün nəticənin müqayisə olunabilənliyi və ədalətlilik prinsipi zəif xarakterizə olunur.

**7.9 Təhsil proqramı üzrə Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

Pandemiya dövründə yekun qiymətləndirmə (2 il) Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi normaya, digər dövrlərdə isə institutun müəyyən etdiyi və əmrlə təsdiq edilmiş qaydalara uyğun aparılıb. Yekun qiymətləndirmə əsas fənlər üzrə, yazılı (bilet) imtahan şəklində və suallar tələbələrə əvvəlcədən verilməklə təşkil olunur.

**7.10 Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

İSM ixtisası üzrə bilik və bacarıqların qiymətləndirilməsi hesabatları vaxtaşırı olaraq müvafiq kafedralarda, dekanlıqda və Elmi Şurada müzakirə edilib və təkmilləşdirilməsi istiqamətində uyğun qərarlar qəbul və icra edilib. Nümunə üçün NMİ Pedaqoji fakültəsinin 12 fevral 2024-cü il tarixli iclasında 2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələrinin müzakirəsinə dair elan və iclas gündəliyi sənədi göstərilə bilər. İclasda imtahanlarda iştirak, müvəffəqiyyət və keyfiyyət göstəriciləri müzakirə edilib.

**7.11 Təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması**

Özünütəhlil Hesabatında I kursdan etibarən tələbələrə təhsil səviyyəsinin bitirilməsi qaydalarının izah edildiyinə dair məlumatlar qeyd olunsa da, tələbələrlə ünsiyyət zamanı aşağı kurs tələbələrinin məzun olmadan əvvəl yerinə yetirməli olduqları öhdəlikləri, götürməli olduqları fənləri, hansı formada yekun imtahan verəcəklərini bilmədikləri aşkar edildi.

### 7.12 Təhsil proqramı üzrə təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

İSM ixtisası üzrə bakalavr səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş “Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası” sənədinə əsasən verilir.

## 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti

### 8.1 Təhsil proqramı üzrə akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatının şəffaf və ictimaiyyət üçün əlçatanlığın təmin olunması vəziyyəti

Sahə səfəri zamanı təhsil proqramı üzrə akademik heyətin işəqəbulu ilə bağlı müxtəlif fikirlər səsləndirildi. Ümumilikdə, akademik heyətin işəqəbulu prosesində qiymətləndirmə məqsədilə açıq dərslərin/sınaq dərslərinin keçirildiyi və müəssisə rəhbərliyinin bu prosesdə iştirakına dair bəzi fikirlər bildirildi. Görüşülən tərəflərdən bəziləri ÖTH-də qeyd olunduğu kimi, bu proseslə bağlı Muxtar Respublikanın (Şərq qapısı) KİV-lərində, NMİ-nin rəsmi saytında və “Azərbaycan müəllimi” qəzetində məlumat verildiyini qeyd edərək prosesin qanunvericiliyə uyğun həyata keçirildiyi bildirdi. Bu barədə təsdiqedici sənəd olaraq NMİ-də professor-müəllim heyətinin işə qəbulu ilə bağlı mexanizmə dair hesabat təqdim olundu. Lakin sənədin hazırlanması dövrü və icra tarixləri, sınaq dərslərin keçirilməsi ilə bağlı təsdiqedici sənədə rast gəlinmədi. Digər tərəfdən, Komissiyanın həyata keçirdiyi bəzi görüşlərdə isə təqdim olunan informasiyalara əsasən kadrlarla iş üzrə məsul tərəflərin proseslərin kənarında qaldığı müşahidə edildi. Təhsil proqramı üzrə akademik heyətin yüksəliş və digər vəzifəyə təyinatının şəffaf və ictimaiyyət üçün əlçatanlığın təmin olunması vəziyyəti ilə bağlı qeyd oluna bilər ki, müəssisədə professor-müəllim heyətinin yüksəliş və digər vəzifəyə təyinatı ilə bağlı məsələlər “Elmi-pedaqoji kadrların elmi fəaliyətinin qiymətləndirilməsinə dair Əsasnamə”yə uyğun olaraq tənzimlənir. Müvafiq sənəd Komissiyaya təqdim olundu.

### 8.2 Təhsil proqramı üzrə akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Sahə səfəri müddətində təhsil proqramında tədris prosesinə cəlb olunan akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarla bağlı müəssisə rəhbərliyinə, təhsilverənlərə ünvanlanan suallara konkret cavab verilmədi. ÖTH-də müəssisədə “Tələbələrin və əməkdaşların mükafatlandırılması haqqında Əsasnamə”si ilə müəyyənləşdirilən mükafatlandırma sisteminin tətbiq edildiyi qeyd olunub. Təhsilverənlərlə görüşlərdə reytinq sisteminin olduğu (məqalə sayı, konfrans materialı təqdim etməsi və s. kimi göstəricilər), əməkdaşların maddi mükafatlandırma ilə yanaşı diplom, fəxri fərmanlarla da təltif olunaraq stimullaşdırıldığı, 14 nəfərin mükafat aldığı bildirildi. Komissiyaya təqdim olunan Əsasnamədə həvəsləndirmə tədbirləri (fəxri fərman, tərifnamə, təşəkkürnamə və s.) haqqında ümumi məlumatlar öz əksini tapsa da, ixtisasda tədris

aparan akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran konkret meyarların mövcudluğunu əks etdirən hər hansı bir sənəd təqdim edilmədi.

### 8.3 Təhsil proqramı üzrə akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Sahə səfəri zamanı ATM-də tədris prosesində iştirak edən akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilmə vəziyyəti ilə bağlı xüsusilə təhsilverənlərə ünvanlanan suallarına konkret cavab almaq mümkün olmadı. ÖTH-də müəssisə mövcud istiqamət üzrə müxtəlif tədbirlərin keçirildiyini qeyd etsə də, Komissiyaya bu barədə təsdiqedici sənəd təqdim olunmadı.

### 8.4 Təhsil proqramı üzrə akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

Müəssisədə son 5 ildə institutdaxili təşkil edilmiş ixtisasartırma kursları barədə ÖTH-də qısa məlumat təqdim edilməsinə baxmayaraq, Komissiya tərəfindən öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirak vəziyyəti ilə bağlı təhsilverənlərə ünvanlanan heç bir suala konkret cavab almaq mümkün olmadı. Akademik heyətin peşəkar inkişafı üçün müxtəlif məzmunlu təlimlər/kurslarda iştirakına dair sistematik qeydiyyatın aparılmadığı, bu istiqamət üzrə fəaliyyətlərin izlənmədiyi, ümumiyyətlə müəssisənin professor-müəllim heyətinin peşəkar inkişafı ilə bağlı təşviq və hesabatlılıq mexanizminin olmadığı müşahidə olundu.

### 8.5 Təhsil proqramı üzrə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Təhsil proqramında tədris prosesinə cəlb olunan akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti ilə bağlı təhsilverənlərlə keçirilən görüşlərdə konkret və təfsilatlı məlumat əldə etmək mümkün olmadı. Müəssisənin ÖTH-də son 5 ildə beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında onlayn iştirakların qeydə alındığına dair məlumatlar əks olunsa da, bu barədə təhsilverənlərlə görüş müddətində konkret və ölçüləbilən bir məlumat təqdim olunmadı. Həmçinin, akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı ilə bağlı hər hansı bir təsdiqedici sənəd təqdim olunmadı.

### 8.6 Təhsil proqramı üzrə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi mövcud deyil. Bu barədə ÖTH-də də müvafiq məlumat qeyd olunub. Əlavə olaraq, kafedralar üzrə müəllimlərin açıq dərs qrafiklərinin mövcud olduğu, dərsdinləmələrin həyata keçirildiyi və bunların kafedra və müəssisənin Elmi Şurasının

iclaslarında müzakirə olunduğu bildirilib. Sahə səfəri zamanı görüşlərdə açıq dərslərin təşkili ilə bağlı müxtəlif fikirlər səslənsə də, təsdiqedici sənəd təqdim olunmadı.

**8.7 Təhsil proqramı üzrə ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti**

Tədris yükü ilkin olaraq ixtisas üzrə tədris prosesində iştirak edən və ştatda olan professor-müəllim heyəti arasında bölünür. Daha sonra qalan dərs yükləri cəlb olunan akademik heyət arasında paylanılır. Bu zaman əməkdaşların elmi dərəcələri və digər göstəriciləri nəzərə alınır. Lakin bəzi hallarda dərsin semestrlər üzrə bölünməsində uyğunsuzluq hallarına da rastlanmışdır.

**8.8 Təhsil proqramı üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)**

ÖTH-yə və Komissiyaya təqdim olunan sənədlərə əsasən İSM proqramı üzrə 433 tələbənin təhsil aldığı görünür. Onların tədrisi ilə pedaqoji təcrübə də daxil olmaqla 76 müəllim məşğul olur. Nisbət 1/7-ə bərabərdir.

**8.9 Təhsil proqramı üzrə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti**

ÖTH-dəki qeydə əsasən təhsil proqramı üzrə tədris prosesində iştirak edən professor-müəllim heyətinin ümumi sayı 76 nəfərdir. Təhsil proqramı üzrə tədris prosesində iştirak edən və əsas iş yeri ATM olan professor-müəllim heyətinin sayı 48 nəfərdir. Yəni, təhsil proqramı üzrə tədrisə cəlb olunan professor-müəllim heyətinin 79%-nin əsas iş yerinin NMİ olduğu qeyd olunur. Sahə səfəri zamanı Komissiya ilə görüşdə təhsil proqramı üzrə professor-müəllim heyətinin 103 nəfər olduğu, onların 82 nəfərinin əsas iş yerinin NMİ olduğu səsləndirildi. Müxtəlif tərəflərin təqdim etdiyi məlumatlar arasında uyğunsuzluğun olduğu müşahidə olundu. Bir-birinə əks olan fikirlərin səsləndirilməsi qiymətləndimənin dəqiq aparılmasını çətinləşdirdi.

**8.10 Təhsil proqramı üzrə kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi**

ÖTH-də bu barədə məlumat yarımçıqdır, yəni müvafiq indikator üzrə məlumat yoxdur. Sahə səfəri zamanı tərəflərlə keçirilən görüşlərdə bildirildi ki, İSM proqramında tədris yükləri proqramda tədris aparan müəllimlər arasında bölüşdürüldüyü üçün əlavə dərs yükü qalmır və bu səbəbdən kənardan professor-müəllim heyətinin cəlb edilməsinə ehtiyac yaranmır. Ehtiyac olduğu təqdirdə bəzi fənləri tədris edən müəllimlərin şəhərdəki digər ali təhsil müəssisəssindən dəvət edildiyi bildirildi.

**8.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti**

Ali təhsil müəssisəsində akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi üçün meyarlar yoxdur, diferensiallaşdırılmış əməkhaqqı sistemi mövcud deyil. Bu barədə ÖTH-də də müvafiq məlumat qeyd olunub.

### 8.12 Təhsil proqramı üzrə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

İxtisasın tədrisinə cəlb olunan professor-müəllim heyəti arasında Dövlət Proqramı çərçivəsində xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almış məzun yoxdur. Bu barədə cari vəziyyət müəssisə tərəfindən hazırlanan ÖTH-də də öz əksini tapıb.

## 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris

### 9.1 Təhsil proqramı üzrə təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Tyutor tərəfindən hazırlanan fərdi tədris planının tərtib edilməsində tələbələrin bilavasitə iştirak etməsi müxtəlif tərəflərlə müsahibə zamanı təsdiqlənib.

### 9.2 Təhsil proqramı üzrə tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Müxtəlif tərəflərlə görüş zamanı seçmə fənlərin seçiminə tələbələrin istiqamətləndirildiyi, yəni tələbələrin onlar üçün hansı fənnin daha uyğun olduğuna inandırıldığı müşahidə edildi.

### 9.3 Təhsil proqramı üzrə Təhsil proqramı üzrə təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Akademik məsləhətçilər tələbələrin iştirakı ilə fərdi tədris planlarını hazırlayırlar. İxtisas üzrə cəmi 1 tyutor fəaliyyət göstərdiyi üçün tələbələr tərəfindən seçim sərbəstliyinin təmin edildiyi iddia oluna bilməz.

### 9.4 Təhsil proqramı üzrə tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Müxtəlif maraqlı tərəflərin (kafedra, müəllim, tyutor və s.) tələbələr arasında çoxsaylı rəy sorğuları keçirdiyi bildirilir. Sorğular çap və ya elektron versiyada tələbələrə paylanılır. Məzun sorğusu isə onların hazırda çalışdıqları təhsil müəssisələrinə çap versiyada göndərilir. Həmçinin institutun foyesində qoyulan anonim "İrad və təkliflər" qutusu da

mövcuddur ki, tələbələr fikirlərini açıq şəkildə bu vasitə ilə bildirə bilirlər. Məzunlarla keçirilmiş sorğularla tanışlıq zamanı müəyyən çatışmazlıqlar aşkarlandı. Məsələn, məzun sorğusunun anonim halda tətbiq edilməməsi buna nümunə olaraq göstərilə bilər. Sorğunun anonim keçirilməsi respondentlərdən daha düzgün məlumat toplanmasına kömək edə bilər. Açıq suallar yerinə qapalı suallara keçilməsi təhlilin asanlaşmasına, sorğu iştirakçılarından istənilən istiqamətdə cavabların alınmasına kömək edə bilər. Sahə səfəri zamanı bu qaydalara riayət olunmadığı müşahidə olundu.

### 9.5 Təhsil proqramı üzrə tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Sorğuların nəticələri əsasında təhsil prosesində bir sıra dəyişikliklər həyata keçirilmişdir. Məsələn, tələbələrin təkliflərinə əsasən mühazirələrin auditoriyada yazdırılması dayandırılmış və bunun əvəzində mühazirə materiallarının elektron formatda təqdim edilməsi təmin edilmişdir. Bundan əlavə, tələbələrin kitabxanadan daha səmərəli istifadə edə bilmələri üçün əlavə oxu zalı ayrılmışdır. Sahə səfərləri zamanı müxtəlif görüşlərdə sorğular nəticəsində tələbələrə tətbiq olunan vahid geyim formasının ləğv edilməsi müzakirə olunmuşdur. Həmçinin, tələbə sorğularına əsasən müəyyən hallarda müəllimlərlə bağlı kütləvi narazılıqların olduğu və bunun nəticəsində bəzi müəllimlərin qurumdan uzaqlaşdırıldığı qeyd olunmuşdur.

### 9.6 Təhsil proqramı üzrə tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

NMİ-də müxtəlif istiqamətlər üzrə sorğular həyata keçirilir, müxtəlif strukturlarda (kafedra, dekanlıq, müəllim, tyutor, keyfiyyət təminatı üzrə mütəxəssis və s.) tələbələrin akademik heyət, xidmət keyfiyyəti, ümumi məmnunluq səviyyəsi və digər məsələlər üzrə rəy və təkliflərin müxtəlif vasitələrlə (anonim müraciət - "İrad və təklif qutusu", şifahi və yazılı adlı müraciət, elektron müraciət və s.) toplanması və qərarların qəbul olunması zamanı onlardan istifadə olunması vəziyyəti qənaətbəxşdir.

### 9.7 Təhsil proqramı üzrə təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

NMİ-də təhsilalanların irad, rəy və təklifləri üçün müxtəlif mexanizmlər mövcuddur. Tələbələr şifahi təklif və iradları üçün kafedra, dekanlıq və rektorluğa müraciət edə bilirlər. İnstitutun rəsmi veb səhifəsindən rektora birbaşa müraciət etmə imkanının olduğu Özünütəhlil Hesabatında qeyd olunsa da, yoxlanış zamanı müraciət formasının aktiv olmadığı aşkarlandı (həm mobil telefon, həm də kompüterdən istifadə etməklə).

### 9.8 Təhsil proqramı üzrə təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

| |
|---|
| Təhsil proqramı üzrə tələbələrin inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən bir akademik məsləhətçi fəaliyyət göstərir. Həmin şəxs İSM ixtisasının bakalavriat və magistratura səviyyələrində təhsilə malikdir. |

### 9.9 Təhsil proqramı üzrə tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti Təhsil proqramı üzrə təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

| |
|---|
| Tələbələr və təhsilverənlər arasında dərsdənkənar kommunikasiya əsasən məsləhət saatları və müəllim ilə qrup nümayəndəsi arasında baş verən Vatsap yazışmaları vasitəsilə mümkün olur. Akademik məsləhətçi (tyutor) ilə tələbələr arasında ünsiyyətin əsasən elektron məktub  və Vatsap vasitəsilə aparıldığı qeyd edilsə də, müxtəlif tərəflərlə ünsiyyət zamanı əsas əlaqə vasitəsinin ancaq Vatsap platforması üzərindən təşkil olunduğu müəyyənləşdirildi. |

### 9.10 Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

| |
|---|
| Son beş ildə institutda sağlamlıq imkanları məhdud tələbə təhsil almadığından onların cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyətini qiymətləndirmək mümkün olmadı. |

### 9.11 Təhsil proqramı üzrə sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

| |
|---|
| İSM üzrə tələbələrin qeydiyyatı zamanı onların sosial həssas qrupa aid olması müəyyənləşdirilir, tədris şöbəsi tərəfindən həmin qrupa aid olma faktı təsdiqlənir və onların təhsil xidmətinə əlçatanlığı təmin edilir. Sahə səfəri zamanı cari tədris ilində bu qrupa aid olan tələbələrin siyahısı ilə tanış olmaq mümkün olmadı. |

## 10. Təhsil proqramının monitorinqi

### 10.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

| |
|---|
| İSM təhsil proqramının monitorinq strategiyası “Naxçıvan Müəllimlər İnstitutunun 5 illik Strateji İnkişaf Planı”nda icra olunan təhsil proqramlarının tərkib hissəsi kimi öz əksini tapıb. Universitetin Strateji İnkişaf Planı, Keyfiyyət Təminatı Siyasəti mövcud olsa da İSM təhsil proqramının monitorinqi strategiyasını əks etdirən xüsusi bölmə yoxdur. Kafedraların, dekanlığın, rektorluğun, xüsusilə də keyfiyyət təminatı və akkreditasiya üzrə məsul |

əməkdaşın illik iş planlarında monitorinq üzrə tədbirlərin görülməsi nəzərdə tutulduğu bildirildi. Fəaliyyət planlarına və illik hesabatlara baxış keçirərkən, belə bir bəndə rast gəlinmədi.

### 10.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Fakültə və kafedralarda kompetensiya xəritələri mövcuddur. Fənnin təlim nəticələri ümumi kompetensiyalara və peşə kompetensiyalarına uyğunlaşdırılaraq tərtib edilib. Fənn proqramları və sillabuslarda da fənnin təlim nəticələri öz əksini tapıb. Bunlar tərtib edilərkən bakalavr səviyyəsi üzrə 2020-ci ilin tədris planları və təhsil proqramları nəzərə alınıb, amma seçmə fənnlərdə bəzi FTN-lərin uyğun olub-olmamasını ayırd edən xüsusi mexanizm formalaşdırılmayıb. Bu işin yerinə yetirilməsi üçün lazım olan nəzarət mexanizmi yoxdur. Kafedralar tərəfindən bildirildi ki, fənn proqramları, sillabuslar təhlil edilərək ixtisas üzrə təlim nəticələrinin fənnin təsvirinə uyğun yazılması, hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları, istifadə olunan qiymətləndirmə üsullarının düzgün seçilməsinə diqqət yetirilir, monitorinqlər aparılır, hesabatlar hazırlanıb müzakirə və təhlil olunur. Sillabusların sonunda onlara verilən rəylər öz əksini tapsa da, bu rəylərin daha çox texniki səhvləri və tərtib üslubunu əhatə etdiyi müşahidə olundu. Əlavə olaraq, təlim nəticələrinin müzakirəsi ilə bağlı məlumatlar mövcud deyil.

### 10.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhvəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Təhsil proqramlarının monitorinqi Elmi Şura iclaslarında müzakirə edilmiş və monitorinq strategiyasının reallaşdırılması və illik fəaliyyət planının icrası ilə daxili keyfiyyət təminatı sistemində görülmüş işlər nəticəsində tədris sənədlərinin vəziyyəti təhlil edilib. Fənn proqramlarının mövcudluğu, yararlı və yararsız olduğunu əks etdirən cədvəlin hazırlanıb təqdim edilməsi nəticəsində təhlillər aparılmış və NMİ daxilində bütün fənn proqramlarının və sillabusların mövcud qanunvericiliyə uyğunluğunu əks etdirən standart formaya salınması üçün təlimat sənədləri və metodik göstərişlər hazırlanıb. Təhsil proqramı üzrə fənn proqramlarının, xüsusilə məcburi fənlərin tədris proqramlarının, habelə mövcud seçmə fənlərin tədris proqramlarının yenilənməsi və yeni seçmə fənlər üçün tədris proqramlarının hazırlanması zərurəti aşkar edilib, bu sahədə lazımi işlər görülüb. Seçmə fənlərin daxil edilməsi isə Elmi Şuranın qərarına əsasən aparılıb. Bu işlər iclas protokollarında və çıxarışlarda öz əksini tapıb.

### 10.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

Sahə səfəri müddətində institutda təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hər semestrin və tədris ilinin sonunda hazırlandığı, kafedra, fakültə və Elmi Şurada müzakirə olunduğu bildirildi. Əlavə olaraq, kafedra hesabatlarında qeyd olunduğu və ümumi müzakirəyə təqdim edildiyi vurğulandı. Özünüqiymətləndirmə hesabatı

| |
|---|
| (04.12.2023 tarix, Əmr № 11/127) Özünütəhlil Komissiyası tərəfindən hazırlandığı müəyyən edildi. Əvvəlki illərə aid təsdiqedici sənəd təqdim edilmədi. |

## 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi

### 11.1 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

| |
|---|
| İSM ixtisası üzrə tədris olunan proqramların əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənmə vəziyyəti ilə bağlı ÖTH-də qeyd olunmuşdur ki, ixtisasın tədris proqramında bir sıra fənlər əmək bazarının və cəmiyyətin tələblərinə uyğundur. Lakin uyğunluğun göstəriciləri, əmək bazarı və cəmiyyətin tələblərinin necə izləndiyi barədə hər hansı bir izah təqdim olunmadı. Sahə səfəri zamanı müvafiq məsələ ilə bağlı suallar rəhbər şəxslərə ünvanlansa da bu barədə konkret olaraq hər hansı bir cavab verilmədi. Universitet rəhbərliyi, həmçinin təhsilverənlər təhsil proqramlarının yenilənmə vəziyyəti ilə bağlı suallara qeyri-dəqiq və ümumi cavablar verdi. Əlavə olaraq, təhsil proqramının əmək bazarının tələblərinə uyğun yenilənmə vəziyyətini müəyyənləşdirmək üçün müxtəlif tərəflərlə keçirilən görüşlərə dair protokol və ya press-reliz kimi hər hansı bir təsdiqedici sənəd Komissiyaya təqdim olunmadı. |

### 11.2 Təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsində nüfuzlu ali təhsil müəssisələrinin proqramlarına istinad vəziyyəti

| |
|---|
| Təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsində digər ali təhsil müəssisələrinin proqramlarına istinad vəziyyəti ilə bağlı müəssisə rəhbərliyi və təhsilverənlərlə görüş zamanı bu mövzuda, xüsusilə, Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə sıx əlaqələrin olduğu vurğulandı. Bu barədə ÖTH-də də ümumi məlumatlar əks olunub. Lakin təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsi ilə bağlı müvafiq ali təhsil müəssisəsinin, həmçinin beynəlxalq ali təhsil müəssisələrinin proqramlarına necə istinad olması barədə Komissiyaya konkret bir məlumat və ya təsdiqedici sənəd təqdim olunmadı. |

### 11.3 Təhsil proqramının yenilənməsinə maraqlı tərəflərin cəlb olunması vəziyyəti

| |
|---|
| Təhsil proqramının yenilənməsinə maraqlı tərəflərin cəlb olunma vəziyyəti ilə bağlı Komissiyanın müəssisə rəhbərliyinə ünvanladığı suala dair ümumi qeydlər paylaşılsa da, maraqlı tərəflərin cəlbi, bunun üçün izlənən yollar barədə dəqiq cavab almaq mümkün olmadı və təsdiqedici sənəd təqdim edilmədi. Təhsilverənlərlərlə görüş zamanı təhsil proqramında qeyd olunan fənlərin tələbələrə tədrisinin professional şəkildə həyata keçirildiyinə dair fikirlər səsləndi. Əlavə olaraq, məktəblərlə əlaqələrin sıx olması, ustad dərslərinin məktəb müəllimləri tərəfindən keçirilməsi sadəcə təklif kimi qeyd olundu. Həmçinin, tələbələrin son kursda təcrübə müddətində məktəblərdə dərslərin tədrisi ilə bağlı |

fərqli fikirlərə sahib olduğu, bu səbəbdən ümumtəhsil məktəblərindəki qabaqcıl müəllimlərin instituta dəvət olunmasının zəruri olduğu, hər fənn üzrə açıq dərslərin təşkil edilməsinin və tələbələrin bunları özlərinə nümunə olaraq götürməsinin vacibliyi vurğulandı. Bundan əlavə, ali təhsil müəssisəsində konfransların təşkil olunduğu, orada təqdim olunan tədqiqat nəticələrinin məzmuna töhfə verdiyi, fənlərdə ad dəyişikliklərinin olduğu və sahə üzrə mütəxəssislərin vacibliyi bildirildi. ÖTH-də təhsil proqramının təkmilləşdirilməsi məqsədilə ümumtəhsil məktəblərinin əməkdaşları ilə, ixtisas üzrə fəaliyyət göstərən məzunlarla mütəmadi olaraq əlaqə saxlanıldığı, onların fikir və təkliflərinin toplanaraq təhsil proqramının icrası zamanı nəzərə alındığı qeyd olunsa da, sahə səfəri zamanı qeyd olunanların tətbiq vəziyyəti ilə bağlı yazılanlar öz əksini tapmadı və bəzən bir-birini təkzib edən fikirlər səsləndi. Təhsilalanlar təhsil proqramının cari vəziyyəti ilə bağlı razı olduqlarını, tədris olunan fənlərin uyğun olduğunu bildirsələr də, təhsil proqramının təkmilləşdirilməsi ilə bağlı prosesdə iştirak etdiklərinə dair hər hansı konkret bir məlumat və ya təsdiqedici sənəd təqdim olunmadı.

## 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 12.1 Təhsil proqramı üzrə tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Təhsil proqramı üzrə tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti ilə bağlı ÖTH-də ali təhsil müəssisəsində tədris şöbəsinin nəzdində məzun-koordinasiya və karyera işləri üzrə metodist ştatının mövcud olduğu, müvafiq məsələlərdən məsul əməkdaşın illik fəaliyyət planı əsasında məzun və tələbələrlə mütəmadi işlərin aparıldığı qeyd olunub. Sahə səfəri müddətində Komissiyanın müvafiq əməkdaş(lar)la görüşü zamanı görülən işlərlə bağlı məlumat almaq mümkün olmadı. Komissiya ali təhsil müəssisəsində bu istiqamət üzrə görülməsi planlanan fəaliyyətlərlə bağlı iş planı ilə tanış olsa da, fəaliyyət planında qeyd olunan tələbə və məzunları əhatə edən fəaliyyətlərin icrasına dair məsul şəxsə ünvanlanan heç bir suala əsaslı cavab almaq mümkün olmadı. Təhsilalanlarla görüş zamanı isə karyera xidmətlərindən istifadə ilə bağlı tələbələr qeyd etdi ki, ehtiyacları olduğu təqdirdə, əsasən, fakültədən (dekan və tyutor) dəstək alırlar. Bundan əlavə, məzunlarla görüş zamanı müəssisədə göstərilən karyera xidmətləri ilə bağlı bildirildi ki, ərizə yazmaq və s. kimi məsələlər dərsdə öyrədilib, CV hazırlanması və s. kimi qaydalarla bağlı isə ehtiyac olduğu zaman müəllimlər bu işdə dəstək göstəriblər. Müvafiq istiqamət üzrə ayrı-ayrı tərəflərin cavablarında uyğunsuzluq müşahidə olundu. Əlavə təsdiqedici sənəd təqdim olunmadı.

### 12.2 Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti ilə bağlı ÖTH-də MİQ (müəllimlərin işə qəbul imtahanı) imtahanına hazırlıq məqsədilə müəssisədə müxtəlif tədbirlərin həyata keçirildiyi, bu tədbirlərdə MR Təhsil Nazirliyinin əməkdaşlarının, tanınmış təhsil işçilərinin, müxtəlif elm xadimlərinin iştirak etməsi barədə məlumatlar qeyd olunmuşdur. Bundan əlavə həm tələbələrlə, həm də məzunlarla müxtəlif məqsədli tədbirlərin keçirildiyi və müəssisənin sosial media hesablarının ("Facebook" və "İnstagram" səhifələrinin) bu tədbirlərin işıqlandırılmasına xidmət etdiyi qeyd olunub. Sahə səfəri zamanı istiqamət üzrə ÖTH-də qeyd olunan məsələlər ilə bağlı məsul əməkdaşlar tərəfindən bənzər məlumatlar təqdim olundu və sosial şəbəkələrdən istifadə edildiyi bildirildi. Lakin məzunların əmək bazarında iştirakının izlənilməsinə dair konkret bir mexanizm təqdim olunmadı. Komissiyanın məzunlarla görüşü zamanı görüşdə iştirak edən məzunların əksəriyyətinin məzun olduqdan sonra ali təhsil müəssisəsində qaldığı və müxtəlif istiqamətlər üzrə məşğulluğa cəlb olunduğu müşahidə edildi.

### 12.3 Təhsil proqramı üzrə məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Təhsil proqramı üzrə məzunların təhsil müddətində əldə etdikləri səriştələrin və təhsil proqramının ümumi keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti ilə bağlı qeyd oluna bilər ki, sahə səfəri müddətində Komissiya ilə görüşdə iştirak edən məzunların əksəriyyətinin institutun əməkdaşları olduğu müşahidə olundu. Məzunların əksəriyyəti müəssisəni fərqlənmə diplomu ilə bitirdiyini, proqramda pedaqoji-psixoloji yanaşmaların güclü olmasına vurğu edərək proqramdan məmnunluqlarını şifahi şəkildə ifadə etdi. Sahə səfərindən əvvəl məzunlarla sorğu anketinin elektron formaları Komissiyaya təqdim edildi. Anonim olmayan sorğu anketlərində məzunun adı, cinsi və s. kimi göstəricilərini müəyyənləşdirəcək suallarla yanaşı MİQ/sertifikasiyaya dair suallar da yer aldığı müşahidə olundu. Elektron formada paylaşılan sorğu nümunələrində İSM ixtisası ilə yanaşı digər ixtisasların (Riyaziyyat-informatika müəllimliyi, Məktəbqədər təhsil, Təhsildə psixoloji xidmət) məzunlarının da iştirakı müşahidə olundu. Sorğu kağızlarının məzunların işlədikləri məktəblərin rəhbərləri/rəhbər əvəzi məsul əməkdaşlar tərəfindən imzalanıb və möhürləndiyi göründü. Sorğuda məmnunluğu ölçəcək hər hansı bir sualın olmadığı, əlavə məlumat, rəy və təklif ilə bağlı bir sualın qeyd olunduğu və sorğu iştirakçılarının əksəriyyətinin anketin bu hissəsini cavablandırmadığı müşahidə olundu. Cavablandırılan kağızlarda isə məmnuniyyət ümumi cümlələrlə *("təhsilverənlərdən məmnun qaldım", "müəllim kollektivindən və rəhbər işçilərdən tam razıyam", "tədris yüksək səviyyədədir", "rektor nümunəvi müəllimdir" və s.)* qeyd olunub. ÖTH-də müvafiq məsələlər ilə bağlı metodist tərəfindən elektron məzun-məlumat bazasının hazırlandığı, məzunların əmək fəaliyyətinə başlama göstəricisi və dəyişmə dinamikasının izlənildiyi vurğulanmışdır. Əlavə olaraq, işəgötürənlərdən məzunlarla bağlı əks-əlaqələrin alındığı və rəylər əsasında çatışmazlıqların aradan qaldırılması, məzunlarda idarəetmə bacarıqlarının inkişafı və təkmilləşdirilməsi üçün təlimlərin təşkil olunduğu qeyd olunmuşdur. Proqramdan məmnunluğa dair hər hansı ölçülə bilən bir indikatora rast gəlinmədi və ümumiyyətlə qeyd olunan məsələlər ilə bağlı hər hansı bir təsdiqedici sənəd təqdim olunmadı.

## 12.4 Təhsil proqramı üzrə məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

| |
|---|
| Təhsil proqramı üzrə məzunlarla davamlı əlaqə sistemi ilə bağlı qeyd oluna bilər ki, sahə səfəri müddətində məsul əməkdaş ilə keçirilən görüşdə ali təhsil müəssisəsində məzunlar haqda elektron məlumat bazasının mövcud olduğu bildirildi. Bu qeyd ÖTH-də də öz əksini tapıb. Elektron bazadan məzunların illər üzrə statistikası, məzun olduqları ildə ümumi və ixtisas üzrə məşğulluğa cəlb olunanların sayı, İSM ixtisası üzrə bitirmiş məzunların MİQ üzrə nəticələri (məzun sayının uğurlu nəticə əldə etmiş namizəd sayına nisbəti) və s. kimi ümumi statistikalar əks olunub. İstiqamət üzrə metodist ştatının ayrılması və illik Fəaliyyət Planının mövcudluğu müsbət bir məqam olaraq görünsə də, tətbiqlərə dair detallı məlumat və dəstəkləyici/təsdiqedici sənədlərin və məzunlarla mütəmadi olaraq əlaqələrin qurulması üçün lazım olan mexanizmin əskikliyi səbəbindən xidmətlərin səmərəliliyini və tərəflərə təmin olunan real töhfəni qiymətləndirmək mümkün olmadı. |

## III Komissiyanın meyarlar üzrə təhlili

***Qeyd:** Təhsil proqramının akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının gəldiyi yekun nəticə əks olunur.*

| **1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu** | |
|---|---|
| **Güclü tərəflər** | ● Naxçıvan MR Təhsil Nazirliyinin, yerli qurumların və digər müvafiq maraqlı tərəflərin tələbə qəbulu sifarişləri ilə bağlı müzakirələrə cəlb edilməsi;<br>● İnstitutun maddi-texniki resurslarının və infrastrukturunun yenilənməsi. |
| **Zəif tərəflər** | ● Təsdiqedici sənədlərin, iclas protokollarının və ya mətbuat materiallarının olmaması;<br>● Təcrübə saytlarından və iş yerlərindən rəy almaq üçün yalnız şifahi ünsiyyətin olması. |
| **Komissiyanın tövsiyəsi** | ● Şəffaflığı və hesabatlılığı qorumaq üçün bütün müzakirələrin, qərarların və alınan rəylərin iclas protokollarında və ya rəsmi hesabatlarda sənədləşdirilməsinin təmin edilməsi;<br>● Təcrübə yerlərindən və iş yerlərindən hərtərəfli rəy əldə etmək üçün şifahi ünsiyyətə əlavə olaraq sorğular və ya yazılı qiymətləndirmələr kimi formal rəy mexanizmlərinin tətbiq edilməsi;<br>● Davamlı təkmilləşməni təmin etmək üçün müxtəlif maraqlı tərəflərin rəylərini daxil etməklə, qəbul sifarişlərinin və təhsil proqramlarının effektivliyinin nəzərdən keçirilməsi və qiymətləndirilməsi üçün sistemli bir prosesin qurulması. |

| **2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması** | |
|---|---|
| **Güclü tərəflər** | ● Milli Kvalifikasiya Çərçivəsinə uyğunlaşdırmanın təmin edilməsi;<br>● Əvvəlki kvalifikasiyaların tanınması;<br>● Kredit köçürmələri, tələbə köçürmələri və tələbə kreditlərinin idarə edilməsi üçün ATİS kimi elektron sistemlərin tətbiq edilməsi. |
| **Zəif tərəflər** | - |
| **Komissiyanın tövsiyəsi** | ● Elektron sistemlərin davamlı olaraq nəzərdən keçirilməsi və təkmilləşdirilməsi; |

| | |
|---|---|
| | ● Tələbələr, müəllimlər və maraqlı tərəflərdən rəylər alınaraq kvalifikasiyaların tanınması və qiymətləndirmə mexanizmlərinin davamlı təkmilləşdirilməsi. |

| **3. Təhsil proqramı üzrə tədrisin təşkili** | |
|---|---|
| **Güclü tərəflər** | ● Tədris planının kredit sisteminin tələblərinə uyğun hazırlanması;<br>● Pedaqoji təcrübə işinin təşkilinin təhsil proqramına və tədris planına uyğun həyata keçirilməsi;<br>● Təhsil proqramı üzrə məsləhət saatlarının olması. |
| **Zəif tərəflər** | ● Ali təhsil müəssisəsi tərəfindən təyin olunan seçmə fənlərin tələbələr tərəfindən seçim sərbəstliyinin təmin olunmaması;<br>● Tədris başlamadan öncə tələbələrin seçə biləcəyi seçmə fənlərin müqayisəli təhlilini aparmaq və uyğun qərarı verə bilmələri üçün fənlər üzrə təlim nəticələrinin əlçatan olmaması (məsələn, veb səhifədə);<br>● Proqramın davamlı yoxlanılmasını təmin edən meyar və mexanizmlərin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | ● Tədris prosesinin səmərəliliyini təmin etmək və təkmilləşdirmək üçün sənədləşmənin müvafiq normalara uyğun aparılması;<br>● İSM ixtisası üzrə tədris planında təklif olunan seçmə fənlərin təlim nəticələri ilə təhsilalanların əvvəlcədən tanış edilməsi və onlara seçim azadlığının verilməsi;<br>● Fənlərdən kredit borcu yaranan tələbələr üçün yay semestrinin təşkil edilməsi. |

| **4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları** | |
|---|---|
| **Güclü tərəflər** | ● Sillabuslar və təlim nəticələri ilə bağlı müəllimlər arasında rəy mübadiləsi və dəyişikliklərə dair müzakirələr aparılması;<br>● Sərbəst işlər və fərdi layihələr zamanı tələbələrin fərdi xüsusiyyətlərinin və öyrənmə stilinin nəzərə alınması. |
| **Zəif tərəflər** | ● İnteraktiv üsulların dərs müddətində daha az istifadə olunması;<br>● Dərslərin daha çox müəllimmərkəzli olması;<br>● Elektron lövhə və proyektorlardan istifadə edilməsinə baxmayaraq daha praktiki təlim və texnikaların tətbiqinin zəif olması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | ● İnteraktiv üsulların tətbiqi üçün təşviq: Daha çox sual-cavab, qruplarla iş və müxtəlif təqdimatlar kimi interaktiv metodların tətbiq edilməsi;<br>● Praktik təlim və texnikaların inkişaf etdirilməsi;<br>● Təlim metodlarının və təlim nəticələrinin təkmilləşdirilməsi üçün müəllimlərin davamlı istiqamətli işlərin aparılması. |

| **5.Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları** | |
|---|---|
| **Güclü tərəflər** | ● Otaqların müasir avadanlıqlar (kompüterlər, proyektorlar, ağıllı lövhələrlə) ilə təchiz olunması, xüsusilə də STEAM otağının yaradılması;<br>● Kitabxana daxilində QR kodu vasitəsilə kitablara əlçatanlığın təmin edilməsi;<br>● ARETN tərəfindən təsdiq edilmiş və qrif hüququ verilmiş proqramların mövcud olması. |
| **Zəif tərəflər** | ● Sinxron/asinxron öyrənmə sistemlərinin olmaması;<br>● Daxili kommunikasiyanın daha çox Vatsap platforması üzərindən aparılması;<br>● Elektron tədris platformasının mövcud olmaması və elektron jurnala keçid edilməməsi;<br>● Sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi tədris resurslarının mövcud olmaması.<br>● Təlim-tədris resursları üçün ayrılmış vəsaitin məhdud olması. |
| **Komissiyanın tövsiyəsi** | ● Elektron kitabxanaya girişin təkmilləşdirilməsi və beynəlxalq kitabxanalara çıxışın təmin edilməsi;<br>● Peşəkar kommunikasiyanın yaradılması üçün akademik heyət, inzibati heyət və təhsilalanlarla ATM-in rəsmi e-poçtu üzərindən yazışmaların aparılması;<br>● Kitab fonduna daxil olan kitab sayının artırılması (hər üç dildə);<br>● Elektron idarəetmə sisteminin yaradılması və nəzarətin təmin edilməsi. |

| **6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi- texniki baza** | |
|---|---|
| **Güclü tərəflər** | ● Tədris otaqları və auditoriyaların standartlara uyğun və yaxşı təchiz olunması;<br>● Təlim və tədris bazasının müasir tələblərə cavab verməsi;<br>● İstehsalat-təcrübə bazasının yüksək səviyyədə təşkili;<br>● Distant təhsil üçün zəruri infrastrukturun mövcud olması. |

| | |
|---|---|
| **Zəif tərəflər** | ● İnfrasturda inkluzivliyin nəzərə alınmaması;<br>● Tədris üçün istifadə olunan bəzi auditoriyaların havalandırma sisteminin zəif olması. |
| **Komissiyanın tövsiyəsi** | ● Sağlamlıq imkanı məhdud tələbələr üçün uyğun şəraitin yaradılması, lift və pilləkənlərdə xüsusi yerlərin ayrılması;<br>● Distant təhsil infrastrukturunun daha effektiv istifadəsi və bu sahədə daha çox resursların cəlb edilməsi;<br>● Tədris proqramlarının mütəmadi yenilənməsi və müasir tələblərə uyğunlaşdırılması;<br>● Kitabxana fondunun daha da zənginləşdirilməsi və təlim resurslarının tələbələr üçün daha əlçatan edilməsi. |

| **7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi** | |
|---|---|
| **Güclü tərəflər** | ● Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üzrə əsasnamələrin mövcudluğu;<br>● Münaqişə Komissiyasının mövcudluğu və rektorun imtahan prosesinə birbaşa nəzarəti. |
| **Zəif tərəflər** | ● Cari qiymətləndirmələrin, əsasən, şifahi aparılması, bunun da qiymətləndirmənin etibarlılığını aşağı salması;<br>● Bir çox hallarda qiymətləndirmə meyarlarının ölçüləbilən olmaması, nəticələrin təhlili imkanlarının zəif olması;<br>● İmtahana qədərki qiymətləndirmə nəticələri ilə imtahan nəticələrinin uyğunsuzluq təşkil etməsi. |
| **Komissiyanın tövsiyəsi** | ● Mümkün olduğu hallarda cari qiymətləndirmələrin tapşırıq üzrə aparılması, qiymətləndirmənin praktiki və yazılı formalarından da istifadə olunması;<br>● Şifahi qiymətləndirmələr təşkil edildikdə, qiymətləndirmə meyarlarının dərsdən əvvəl hazırlanması və tələbələrin bu barədə məlumatlandırılması;<br>● Qiymətləndirmənin formasından asılı olmayaraq, qiymətləndirmə meyarlarının spesifik və ölçüləbilən hala gətirilməsi. |

| **8.Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti** | |
|---|---|
| **Güclü tərəflər** | ● Tədris prosesinə cəlb olunan professor-müəllim heyətinin işəqəbulunun qanunvericiliyə uyğun həyata keçirilməsi. |
| **Zəif tərəflər** | ● Məsul tərəflərin prosesə tam cəlb olunmaması; |

| | |
|---|---|
| | ● İxtisasda tədris aparan akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran konkret meyarların mövcudluğunu əks etdirən sənədin olmaması;<br>● Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməməsi;<br>● Tədris prosesində iştirak edən akademik heyətin peşəkar inkişafı üçün müxtəlif məzmunlu təlimlər/kurslarda iştirakına dair sistematik qeydiyyatın aparılmaması, bu istiqamət üzrə fəaliyyətlərin izlənməməsi, müəssisənin professor-müəllim heyətinin peşəkar inkişafı ilə bağlı təşviq və hesabatlılıq mexanizminin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | ● Məşğulluqdan məsul bütün tərəflərin prosesdə iştirakını təmin edəcək şəffaf mexanizmin formalaşdırılması;<br>● Pedaqoji və peşə keyfiyyətlərini nəzərə alan aydın və ədalətli seçim meyarlarının müəyyən edilməsi;<br>● Professor-müəllim heyətinin peşəkar inkişafı ilə bağlı məsələlərin təşkilini və izlənməsini təmin edəcək mexanizmin hazırlanması. |

| **9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris** | |
|---|---|
| **Güclü tərəflər** | ● Tələbələrin rəylərinin müxtəlif formalarda və müxtəlif maraqlı tərəflərin təşəbbüsü ilə alınması;<br>● Tələbə sorğularının nəticələrinin müxtəlif istiqamətlərdə nəzərə alınması. |
| **Zəif tərəflər** | ● Seçmə fənlərin seçimi zamanı tələbələrin istiqamətləndirilməsi;<br>● Tyutor sayının az olması;<br>● Sorğuların məzmununda və iştirakçılara çatdırılma mexanizmində çatışmazlıqların olması;<br>● İnstitutun rəsmi veb səhifəsindəki “Rektora müraciət” bölməsinin fəaliyyət göstərməməsi;<br>● Tələbələrlə ünsiyyətin qeyri-rəsmi vasitələrlə (Vatsap aparılması. |
| **Komissiyanın tövsiyəsi** | ● Seçmə fənlərin seçimi üzrə tələbələrin daha çox məlumatlandırılması və seçim azadlığının təmin edilməsi;<br>● Tələbə və məzun sorğusunun məzmunca təkmilləşdirilməsi;<br>● Tələbələrlə ünsiyyətin əsasən rəsmi vasitələr (məsələn, e-poçt) üərindən təşkili; |

| | |
|---|---|
| | ● Məzunlarla sorğuların çalışdıqları müəssisə üzərindən deyil, institutun məzun bazası əsasında elektron formada və anonimlik nəzərə alınaraq aparılması. |

| **10. Təhsil proqramının monitorinqi** | |
|---|---|
| **Güclü tərəflər** | ● Kompetensiya xəritəsinin mövcud olması;<br>● Sillabuslar tərtib edilərkən digər müəllimlərin rəyinin alınması, müzakirə edilməsi və dəyişikliklərin qeyd edilməsi;<br>● Fənnin təlim nəticələrin sillabuslarda əks olunması. |
| **Zəif tərəflər** | ● Fənnin təlim nəticələrinə nəzarət mexanizminin tam formalaşmaması;<br>● İSM ixtisasının təkmilləşdirilməsi ilə bağlı bəndin NMİ-nin Strateji İnkişaf Planında olmaması;<br>● Proqramla bağlı daxili monitorinqin keçirilməsi bəndinin bəzi struktur bölmələrin iş planında olsa da, təsdiqedici sənədinin təqdim edilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | ● Proqramın monitorinqi üçün mexanizmin formalaşdırılması;<br>● Daxili monitorinqin keçirilməsi üçün meyarların hazırlanması. |

| **11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi** | |
|---|---|
| **Güclü tərəflər** | ● Pedaqoji profilli universitet ilə əlaqələrin olması; |
| **Zəif tərəflər** | ● Əmək bazarının və cəmiyyətin ehtiyaclarının izlənilməsi üçün mexanizmin olmaması;<br>● Təhsil proqramının davamlı olaraq təkmilləşdirilməsi və yenilənməsi üçün meyarların olmaması;<br>● Təhsil proqramının yenilənməsi prosesinin monitorinqinin aparılmaması. |
| **Komissiyanın tövsiyəsi** | ● Əmək bazarının və cəmiyyətin ehtiyaclarının izlənməsi ilə bağlı funksional mexanizmin hazırlanması;<br>● Təhsil proqramının yenilənməsi üçün meyarların formalaşdırılması;<br>● Təhsil proqramının yenilənməsi prosesinin monitorinqinin müntəzəm təşkili. |

| 12.Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | |
|---|---|
| **Güclü tərəflər** | ● İllik Fəaliyyət Planının olması. |
| **Zəif tərəflər** | ● Karyera məsələləri ilə bağlı məlumatların yetərli səviyyədə olması;<br>● Karyera və məzunlarla işin təşkilində təhsil müəssisəsində kommunikasiya və koordinasiya işinin əhatəli təşkil edilməməsi;<br>● Karyera və məzunlarla əlaqə üçün mexanizmin olmaması;<br>● Fəaliyyət Planının monitorinqinin aparılmaması. |
| **Komissiyanın tövsiyəsi** | ● Karyera xidmətləri və məzunlarla sistematik əlaqənin qurulması üçün karyera və məzun izləmə sistemi yaradılması;<br>● İzləməni həyata keçirəcək komissiyanın yaradılması və davamlı hesabatlılığın təmin olunması. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

Naxçıvan Müəllimlər İnstitutunda "İbtidai sinif müəllimliyi" proqramının fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər və komissiyanın tövsiyəsi olmaqla) Komissiya tərəfindən proqram akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 12 meyar üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq proqramın fəaliyyəti ilə bağlı müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (ümumilikdə 36 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti proqram akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin Naxçıvan Müəllimlər İnstitutu tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 3 (üç) ay müddətində proqram üzrə müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Naxçıvan Müəllimlər İnstitutunun "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyası Komissiyasının yekun rəyi aşağıdakı kimidir:

- Naxçıvan Müəllimlər İnstitutunun "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyası qiymətləndirilməsinin yekunu olaraq, bu proqramın müvafiq meyarlar üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə "qismən uyğundur" hesab edilməsi;

- Naxçıvan Müəllimlər İnstitutunun "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil proqramının qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 (iki) il üçün uzadılması və təhsil proqramının 1 (bir) ildən sonra təkrar akkreditasiya edilməsi məqsədəuyğun hesab edilir.